Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 88 (8111) ÇƏRŞƏNBƏ, 24 aprel 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Prezident səxavəti, vətəndaş məmnunluğu

## Problemli kreditlər üzrə kompensasiyaların ödənilməsi davam edir

Bu gün Prezident İlham Əliyevin pensiyaların, sosial müavinətlərin, təqaüdlərin artırılması barədə cari il imzaladığı fərman və sərəncamlardan əhalinin əksər təbəqələri yararlanır.

Dövlət başçısının bu siyasətin davamı olan 28 fevral 2019-cu il tarixli “Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərin həlli ilə bağlı əlavə tədbirlər haqqında” fərmanı isə 800 minə yaxın vətəndaşımızı çoxdan rahatsız edən probleminin həllinə yol açmışdır.

Bu proses uzun zaman tələb etsə də, dövlət başçısının tapşırığına əsasən, əlaqədar qurumların gərgin çalışması sayəsində qısa müddət ərzində - fərmanın imzalanmasından 2 ay keçməmiş problemli kreditləri olan vətəndaşlar kompensasiyalarını almağa başlamışlar.

Sözsüz ki, ödəniləcək kompensasiyaların hesablanması zamanı əhali ilə banklar arasında müəyyən suallar da ortaya çıxırdı. Bu problemin həlli də dövlət başçısının diqqətindən kənarda qalmadı. Prezidentin tapşırığına əsasən, Maliyyə Bazarlarına Nəzarət Palatasının yanında Apelyasiya Komissiyası yaradıldı. İndi vətəndaşlar onları maraqlandıran bütün suallara bu komissiyadan operativ cavab ala bilirlər.

Maliyyə Nazirliyindən verilən məlumata görə, fiziki şəxslərin problemli kreditləri üzrə kompensasiyaların ödənilməsi üçün 350,8 milyon manat ilk tranş ayrılmışdır. Bu vəsait bankların və bank olmayan kredit təşkilatlarının, eləcə də ləğvetmə prosesində olan təşkilatların hesablarına köçürülmüşdür. Artıq aprelin 22-dən kompensasiya ödənilməsinə başlanılmışdır.

NBCBankdan verilən məlumata görə, problemli krediti olan müştərilərə kompensasiyanın ödənilməsi prosesi aktiv gedir. Bankda problemli krediti olan hər kəsə vaxt itkisi yaşamamaq üçün bütün tədbirlər görülüb. Vətəndaşlar həm dövlət başçısının bu humanist addımına, həm də banklarda yaradılan şəraitə görə məmnundurlar.

Təqaüdçü *Zemfira Mütəllibova* devalvasiyalardan əvvəl “MuğanBank”dan kredit götürmüşdü. Vaxtında krediti ödəyə bilmədiyi üçün faizləri yığılıb qalmışdı. Dövlət başçısının məlum fərmanından sonra onun yığılıb qalmış 725 manat borcu silindi. Z.Mütəllibova deyir ki, Prezident İlham Əliyev onu iki dəfə sevindirib - biri problemli kreditlərin həlli ilə bağlı, digəri isə minimum pensiyaların 160 manata çatdırılması ilə əlaqədar sənədlər imzalayanda.

*Zümrüd Səlimova* tikiş fabrikində işləyir. Evinin təmiri üçün Unibankdan müəyyən məbləğ kredit almışdı. Həmin kredit xarici valyuta - ABŞ dolları ilə olduğu üçün devalvasiya nəticəsində götürdüyündən xeyli artıq məbləğdə vəsait ödəmişdi. İndi artıq ödədiyi həmin vəsait özünə qaytarılır. Deyir ki, sevincinin həddi-hüdudu yoxdur: “Həmin vəsaiti məcburən ödədiyimizdən ailəmizin müəyyən maliyyə problemləri yaranmışdı. Artıq bu problemlər geridə qaldı. Dövlət başçısına ailəmiz adından minnətdarlığımı bildirirəm”.

Digər bir vətəndaş *Ülviyyə Hacıyeva* da Prezidentin fərmanından faydalananlardandır: “Çətin vəziyyətdə idik. Ailəmizin gəlirinin çox hissəsini yalnız kredit borcundan yaranan faizlərin ödənilməsinə sərf edirdik. Buna görə də ailəmizdə maddi sıxıntılar yaşanırdı. Dövlət başçısının fərmanından sonra biz nəinki vəsait ödəməkdən azad olduq, əksinə, devalvasiyaya görə artıq ödədiyimiz məbləği də geri aldıq. Buna görə Prezident İlham Əliyevə minnətdarıq”.

***Rüstəm KAMAL,***
***“Azərbaycan”***



# Yol olan yerdə inkişaf var

## Prezident İlham ƏLİYEV: “Azərbaycan müasirləşir, yeniləşir, hər bir yerdə, hər bir bölgədə və hər bir sahədə çox böyük quruculuq, abadlıq işləri aparılır”

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 23-də Bakının Xəzər rayonunda Mərdəkan-Qala avtomobil yolunun açılışında iştirak edib. AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev əvvəlcə sakinlərlə görüşdü.

Dövlət başçısı dedi:

- Sizi görməyimə çox şadam. Çox şadam ki, Mərdəkan qəsəbəsində çox gözəl infrastruktur layihələri icra edilir və yollar salınır, qəsəbənin digər problemləri öz həllini tapır. Bu, bizim siyasətimizdir. Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır və çox çalışırıq ki, hər bir yerdə inkişaf olsun, quruculuq, abadlıq işləri aparılsın.

Yol inkişaf üçün əsas şərtlərdən biridir. Buzovna-Mərdəkan yolu keçən il istifadəyə verilib. Bu yol mövcud deyildi. İndi isə yoldan istifadə olunur, yolboyu binalar tikilir, ictimai yerlər, ictimai obyektlər salınır. Yəni, yol olan yerdə inkişaf da var. Azərbaycanda son illərdə bütün yerlərdə müasir yol infrastrukturu yaradılır, o cümlədən Bakı qəsəbələrində. İndi isə Mərdəkan-Qala yolunun açılışını qeyd edirik. Bu, əslində onu göstərir ki, hər bir sahədə, hər bir bölgədə ən müasir standartlar tətbiq olunur.

Bildiyiniz kimi, son 15 il ərzində ölkəmizdə 15 min kilometr yol çəkilib. Hər bir yerdə, hətta dağ kəndlərində, yol olmayan kəndlərə biz yollar çəkdik. Bu gün bu yollar həm insanlara xidmət göstərir, həm biznes imkanlarını genişləndirir, fermerlər üçün yeni imkanlar yaradır və yollar keyfiyyətli salınır. Çünki Davos Ümumdünya İqtisadi Forumunun hesablamalarına görə, Azərbaycanda yolların keyfiyyəti dünya miqyasında 34-cü yerdədir. Biz çalışırıq ki, hər bir sahədə ən yüksək standartları tətbiq edək və insanları narahat edən problemləri aradan götürək.

Yol, infrastruktur, elektrik enerjisi ilə təchizat, qazlaşdırma, su layihələri - bütün bunlar diqqət mərkəzindədir və son illərdə bu istiqamətdə çox ciddi addımlar atılır. Ona görə mən gəlmişəm bu gün sizinlə görüşüm, bu gözəl hadisəni bir yerdə qeyd edim və sizə yeni uğurlar, qələbələr arzulayım.

Qəsəbələrarası və qəsəbədaxili yollar diqqət mərkəzindədir. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə göstəriş verilib ki, Bakı qəsəbələrində yol infrastrukturuna çox ciddi fikir verilsin və demək olar ki, indi bu proses geniş vüsət alıb. Əminəm ki, bütün qəsəbələrdə daxili yollar bərpa ediləcək və insanlara rahatlıq verəcək. Bir daha sizi təbrik edirəm, sizə uğurlar arzulayıram.

Rayon sakini **Altay Mansurov** görülən işlərə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirərək dedi:

- Hörmətli cənab Prezident, əvvəla, rayon sakinləri və ağsaqqalları adından Sizə “Xoş gəlmisiniz!” deyirəm. Bizim sakinlər, - bilirsiniz ki, Xəzər rayonunun sakinləri Sizi çox istəyirlər, - Sizi həmişə burada görməyə şad olurlar. Bu gün də biz çox şadıq ki, Siz gəlmisiniz, Sizinlə görüş keçiririk. Bu, birinci dəfə deyil. Siz bizim rayonda tez-tez olursunuz, biz görüşürük, bununla da fəxr edirik. Xoş gəlmisiniz, Sizə cansağlığı arzulayırıq.

Sizin gördüyünüz işlər göz qabağındadır. Son illərdə nəinki bizim rayonda, bütün Azərbaycanda görülən işlərin hamısını biz televizorda müşahidə edirik, görürük, nə cür yollar çəkilir, hansı işlər görülür. Son zamanlar Sizin göstərişinizlə, fərmanlarınızla, sərəncamlarınızla insanların sosial rifahının yaxşılaşdırılması istiqamətində çox işlər görülüb. Eyni zamanda, şəhərlərdə, qəsəbələrdə, o cümlədən bizim rayonda çox böyük işlər görülür, hamısı göz qabağındadır, su təsərrüfatını, yol təsərrüfatını demək olar. Son vaxtlar bizim rayonda da çox yollar çəkilir. Qəsəbələrarası yollar çəkilib, köhnə yollar bərpa edilib. Bu da sakinlərimizin yaşayış şəraitinin yaxşılaşdırılmasına töhfə verir. Bu yolun da çəkilməsi qəsəbələr arasında gediş-gəlişi, eyni zamanda, şəhərə çıxışı asanlaşdıracaq. Son zamanlar Buzovna-Mərdəkan yolunun çəkilməsi, eyni zamanda, indi Mərdəkan-Qala yolunun mərkəzi yola birləşdirilməsi, şəhərə, qonşu qəsəbələrə çıxışın təmin edilməsi, əlbəttə ki, insanların yaşayışına və rifahına böyük kömək olacaq. Sizə cansağlığı arzulayırıq. Biz Sizin daxili və xarici siyasətinizi bəyənirik. Biz bunu hər dəfə təkrar edirik və həmişə biz Sizin arxanızda böyük bir qüvvə kimi dayanmağa hazırıq.

**Prezident İlham Əliyev:** Çox sağ olun, təşəkkür edirəm. Mən çalışıram və bundan sonra da çalışacağam ki, doğma xalqıma ləyaqətlə xidmət edim. Ölkə qarşısında duran bütün problemlər öz həllini tapmalıdır. Son illər ərzində görülmüş işlər göz qabağındadır. Azərbaycan müasirləşir, yeniləşir, hər bir yerdə, hər bir bölgədə və hər bir sahədə çox böyük quruculuq, abadlıq işləri aparılır.

Bu gün iqtisadi inkişaf təmin edilir. Bu il iqtisadiyyatımız 3 faiz artır, əvvəlki illərə nisbətən bu artım daha böyükdür. Düzdür, bu, bizi tam qane edə bilməz. Çünki hesab edirəm ki, potensial daha böyükdür və biz iqtisadi baxımdan daha yüksək templərlə artmalıyıq.

***Ardı 2-ci səh.***

# Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət üzrə Təşkilatı (YUNESKO) arasında Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası ilə bağlı Sazişin təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət üzrə Təşkilatı (YUNESKO) arasında Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası ilə bağlı 2019-cu il martın 27-də Paris şəhərində imzalanmış Saziş təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə YUNESKO-ya bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 aprel 2019-cu il*




# Bakı "Formula-1" üçün unikal yerdir



## Planetin ən güclü pilotları Azərbaycan Qran-prisini səbirsizliklə gözləyirlər

Dünyanın sürət həvəskarları Bakıdakı “Formula-1” yarışının həyəcanı ilə yaşayır. Bu günlərdə planetimizdə avtomobil idmanına maraq göstərən hər kəsin diqqəti paytaxtımıza yönəlib.

Bakı Şəhər Halqasında dünyanın ən məşhur pilotları - Luis Hamilton, Valtteri Bottas, Antonio Covinatsi, Serxio Peres, “Ferrari” komandasının rəhbəri Mattia Binotto və digərləri ümumilikdə cari mövsüm, Azərbaycan Qran-prisi haqqında fikirlərini bölüşüblər.

### “Bakıda bizi fərqli yürüş gözləyir”

“Mercedes”in pilotu Luis Hamilton ötən iki mövsümdə Azərbaycandakı trasın əla olduğunu diqqətə çatdırıb. Deyib ki, Bakıda əvvəlkindən daha yüksək nəticələrə nail olmaq istəyir: “Bolidin sürətinin az olmasına baxmayaraq, ötən il yürüşü qazanmaqda bəxtim gətirmişdi. Mən Valtteri Bottasın və xüsusilə “Ferrari”nin Bakıda daha sürətli olacağını gözləyirəm”.

“Mercedes” komandasının digər pilotu Valtteri Bottas isə qeyd edib ki, mövsümün başlanğıcı komanda üçün ideal olub:

***Ardı 5-ci səh.***

# Sosial islahatlar paketi - yüksək rifahın təminatı

## İlham Əliyevin imzaladığı fərman və sərəncamlara əsasən, son 4 ayda elə bir sahə yoxdur ki, maaşlar, sosial müavinətlər və təqaüdlərdə artımlar edilməsin

“Biz minimum əməkhaqqını, minimum pensiyanı artırırıq. Ancaq daha da artırılmalıdır və artırılacaq. Hazırda iqtisadi vəziyyətimiz də, maliyyə vəziyyətimiz də yaxşıdır. Biz əlavə əldə edilmiş bütün gəlirləri vətəndaşların sosial müdafiəsinə yönəldəcəyik”.

Xalqın sosial vəziyyətinin yüksəldilməsi istiqamətində mühüm addımlar atan Prezident İlham Əliyev aprelin 18-də Suraxanı rayonunun Qaraçuxur qəsəbəsindəki Neftçilər parkında vətəndaşlarla səmimi söhbəti zamanı bugünədək imzalanan sənədləri böyük sosial islahatlar paketinin bir hissəsi adlandırdı. Eyni zamanda vurğuladı ki, bu artım böyük olsa da, dövləti qane edə bilməz və ona görə də maaşlar, pensiyalar bundan sonra da qaldırılacaq. Bununla bağlı artıq müvafiq göstəriş də verilib.

Bütün bunlar bir daha təsdiq edir ki, dövlətin sosial siyasətinin fəlsəfəsi iqtisadi inkişafın nəticələrini əhalinin rifah halının yüksəldilməsinə yönəltməkdir. Bu siyasət hər gün daha geniş şəkildə davam etdirilir. Minimum əməkhaqqının, pensiyanın, tələbələrin təqaüdlərinin artırılması, digər ödənişlərin verilməsi və əhalinin sosial müdafiəsinin yüksəldilməsi sahəsində atılan addımların əhatə dairəsini daha da genişləndirmək məqsədilə imzalanan sənədlər xalqın dövlətə, onun liderinə olan inam və etibarını daha da gücləndirir.

***Ardı 4-cü səh.***

# Yol olan yerdə inkişaf var

## Prezident İlham ƏLİYEV: "Azərbaycan müasirləşir, yeniləşir, hər bir yerdə, hər bir bölgədə və hər bir sahədə çox böyük quruculuq, abadlıq işləri aparılır"

*Əvvəli 1-ci səh.*







Ancaq, eyni zamanda, aparılan islahatlar və islahatların dərinləşməsi bizə əlavə imkanlar yaradır. Son illər ərzində çox böyük işlər görülüb, işlər də göz qabağındadır. Ancaq biz indi inkişafımızın yeni mərhələsindəyik. Son prezident seçkiləri ərəfəsində mən bəyan etmişdim ki, növbəti dövr islahatlar dövrü olacaq. Çünki hər bir ölkə üçün islahatlar çox önəmlidir. İslahatlar yenilik, müasirlik, nöqsanların aradan qaldırılması, problemlərin həlli deməkdir. Bizdə hər bir sahə üzrə çox aydın təsəvvür və iş proqramı var. Ona görə islahatların dərinləşməsi nəticəsində əldə edilmiş nailiyyətlər, əlbəttə ki, vətəndaşların rifah halını yaxşılaşdırır. Baxın, bu ilin üç ayında büdcə daxilolmaları böyük dərəcədə artıb. Yəni, vergi və gömrük orqanları plandan əlavə 200 milyon manatdan çox vəsait toplayıblar. Nəyin hesabına? İslahatlar hesabına. Nəyin hesabına? Şəffaflıq hesabına, aparılmış siyasət nəticəsində. Sahibkarlar da razıdır, çünki bu gün sahibkar da bilir ki, dövlətin vergisini ödəməlidir, tam ödəməlidir və ondan başqa heç kimə heç bir ödəniş edilməməlidir. Mən indi görürəm ki, sahibkarlarda da bu işlərə böyük inam var.

Biz daxil olan əlavə gəlirləri, ilk növbədə, sosial məsələlərin həllinə yönəldirik. Düzdür, infrastruktur layihələri də lazımdır, biz oraya vəsait ayırmasaydıq, belə yollar çəkilə bilməzdi. Ancaq indiki şəraitdə biz vəsaiti daha çox insanların rifah halının yaxşılaşdırılması üçün yönəldirik. Təsadüfi deyil ki, keçən ilin aprel ayında prezident seçkilərindən sonra imzaladığım ilk fərman şəhid ailələrinin rifah halının yaxşılaşdırılmasına yönəldilmişdir. Şəhid ailələrinə 11 min manat ödənişin təşkil edilməsi bizim niyyətimizi göstərir və bu ödənişlər aparılır. Ondan sonra qəbul edilmiş qərarlar, imzaladığım fərmanlar da bir məqsədi güdür ki, vətəndaşlar daha da yaxşı yaşasınlar. Minimum əməkhaqqı, minimum pensiya təxminən 40 faiz artırılıb. Mən bu yaxınlarda demişəm, artım faiz baxımından böyük olsa da, bizi qane edə bilməz. Çünki biz daha da yüksək həddə çatmalıyıq və bunu etmək üçün daha da fəal işləməliyik. Sosial müavinətlər orta hesabla iki dəfə, köçkünlərə, şəhid ailələrinə verilən müavinət, tələbə təqaüdləri 50 faiz artıb. Bir çox önəmli fərman və sərəncamlar imzalanmışdır ki, insanların rifah halını, biznes mühitini yaxşılaşdırır və bu istiqamətdə işlər davam etdiriləcək. Çünki minimum əməkhaqqı, minimum pensiyanın qaldırılması daimi proses olmalıdır.

Azərbaycan indi inkişafın yeni mərhələsindədir və bundan sonra iqtisadi artım çox sürətli olacaq. Nəzərə alsaq ki, bizim neft-qaz sahəsində apardığımız siyasət öz bəhrəsini verir, yaxın gələcəkdə "Cənub qaz dəhlizi" işə düşəcək. Bu, əlavə gəlir gətirəcək və gəlir də vətəndaşların rifah halının yaxşılaşmasına yönəldiləcək.

Əlbəttə ki, islahatlar hərtərəfli olmalıdır - həm iqtisadi sahədə, sosial sahədə, siyasi sahədə, həm də idarəetmə sahəsində. Bu sahələrdə hələ ki təkmilləşməyə böyük ehtiyac var. Biz öz siyasətimizi yerlərdən gələn təkliflər əsasında qururuq.

Bu ilin yanvarında dördüncü regional inkişaf proqramı qəbul edilib. Bu proqramın qəbul edilməsində yerlərdən gələn müraciətlər əsas rol oynayır. Çünki vətəndaşları narahat edən problemlər var ki, biz onları bilməliyik və həll etməliyik. Bizim məqsədimiz budur, siyasətimiz də bundan ibarətdir. Əminəm ki, ölkə qarşısında duran bütün vəzifələr, problemlər öz həllini tapacaq.

Xəzər Rayon Ziyalılar Cəmiyyətinin sədri **Təvəkkül Səlimov** da rayonun sosial-iqtisadi inkişafına göstərdiyi diqqətə görə dövlət başçısına minnətdarlığını bildirərək dedi:

- Möhtərəm cənab Prezident, mən də Sizə "Xoş gəlmisiniz!" deyirəm. Siz 2003-cü ildə prezident seçkiləri ərəfəsində Mir Mövsüm Ağa ziyarətgahında çıxış etdiniz. Orada çox gözəl sözlərin sırasında bu sözlər də oldu: "Mən çalışacağam ki, prezident seçiləndən sonra hər bir azərbaycanlının Prezidenti olum". Bütün fəaliyyətiniz dövründə Siz sübut etdiniz ki, sözün əsl mənasında, hər bir azərbaycanlının Prezidentisiniz. Bunu 16 illik fəaliyyətiniz dövründə iqtisadi islahatlar, ictimai həyatda, mədəni, mənəvi quruculuq sahələrində baş verən yeniliklər tam sübuta yetirdi. Bir məsəl var, deyirlər ki, "abad kənd yolundan bilinər". Hər şey yoldan başlayır. Sizin yol infrastrukturunun inkişafına ayırdığınız diqqət, əslində, ölkənin iqtisadiyyatına, əlaqələrin genişlənməsinə, doğrudan da, çox böyük yardım göstərir. Siz keçən il aprelin 11-də Prezident seçiləndən sonra özünüz qeyd etdiyiniz kimi, ilk fərmanınız əhalinin, insanların həyatının yaxşılaşdırılması ilə bağlı oldu. Son bir neçə ay ərzində Qarabağ müharibəsi iştirakçılarının, müharibə əlillərinin, pensiyaçıların, digər sosial qrupların təqaüdlərinin artırılması, bu yöndə atılan addımlar insanlarımız tərəfindən çox böyük rəğbətlə qarşılanıb. Bax, elə bu Xəzər rayonunun inkişafı Sizin fəaliyyətinizin əsl göstəricisidir.

Xəzər rayonunda yolların salınması istiqamətində görülən işlərə görə dövlət başçısına minnətdarlığını bildirən Təvəkkül Səlimov Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə iqtisadiyyatın inkişafı üçün atılan addımları xüsusi qeyd edərək dedi:

- İnanın, 11 aprel seçkilərindən bu yana ötən 15 ilin nəticələri qədər nəticələr qazanmışıq. Cənab Prezident, mən sakinlərimiz adından bu möhtəşəm işlərinizə, səmimiyyətinizə, xalqımıza, insanlarımıza, o cümlədən bizə olan isti münasibətinizə görə Sizə dərin minnətdarlığımı bildirirəm. Mehriban xanım həmişə bizi diqqətdə saxlayır, Allah ona ömür versin. O, sözün əsl mənasında, Azərbaycan qadınının, doğrudan da, simasını göstərən bir insandır. Cənab Prezident, bir daha Sizə və Mehriban xanıma işlərinizdə uğurlar arzu edirəm. Siz buraya həmişə gəlin. Siz buraya gələndə biz hər dəfə yeniliklərlə rastlaşırıq.



**Prezident İlham Əliyev:** Çox sağ olun. Hər bir rayonda gedən işlər məni sevindirir. Çox şadam ki, Xəzər rayonunda bütün işlər yaxşı gedir, abadlıq-quruculuq, təsərrüfat işləri aparılır. Əvvəlki illərdə də yaxşı nəticələr olub və biz birlikdə ölkəmizi inkişaf etdiririk. Hər bir yerdə hər bir vətəndaş ümumi inkişafımıza öz töhfəsini verir. O ki qaldı dövlət siyasətinə, bir daha demək istəyirəm ki, biz ölkəmizi gücləndiririk, beynəlxalq mövqelərimizi möhkəmləndiririk, hərbi gücümüzü artırırıq, sosial məsələlərin həllinə çalışırıq. Son dövrdə imzaladığım fərmanlar, doğrudan da, həm təsirlidir, həm əhəmiyyətlidir, həm də ki, bizim siyasətimizi göstərir. Deyə bilərəm ki, bu fərmanlara başqa ölkələrdə rast gəlinmir. Məsələn, tutaq ki, problemli kreditlər nədən qaynaqlandı? Devalvasiyadan. Devalvasiya nəyə görə baş verdi? Neftin qiyməti 4 dəfə azaldı, gəlirlərimiz, manatın məzənnəsi aşağı düşdü və insanlar bundan əziyyət çəkdilər. Maksimum çalışırdıq ki, vəziyyəti sabitləşdirək, sabitlik olsun, manat sabitləşsin. Artıq uzun müddətdir ki, manat sabit olaraq qalır. Bizim indiki iqtisadi və maliyyə vəziyyətimiz onu deməyə əsas verir ki, manatın sabitliyi ilə bağlı heç bir problem gözlənilmir. İqtisadi, maliyyə imkanı artdıqca biz, ilk növbədə, səylərimizi problemli kreditlərin həllinə yönəltdik və bunu həll etdik, özü də ən yüksək səviyyədə. İndi bu fərman dərc edilib və orada göstərilən maddələr əminəm ki, kredit borcu olan hər bir vətəndaş üçün çox əhəmiyyətlidir. Bundan 600 mindən çox insan bəhrələnir və artıq kompensasiyaların verilməsi prosesi başlanmışdır.

Əsas odur ki, vətəndaşları narahat edən məsələlər öz həllini tapsın. Hər yerdə hər bir dövlət məmuru, icra başçısı, bələdiyyə sədri, hər bir dövlət təşkilatında çalışan məmur vətəndaşlara xidmət etməlidir. Mən bunu dəfələrlə demişəm. Əfsuslar olsun ki, hər yerdə belə deyil, elə hallar var ki, vətəndaşları incidirlər, onların haqları tapdalanır, onların problemlərinə biganə yanaşılır. Bilirsiniz ki, mən vətəndaşlarla müntəzəm təmasda oluram. Mən vətəndaşlardan həm problemləri, həm də müsbət tərəfləri eşidirəm. Ona görə hər bir dövlət məmuru bilməlidir ki, onun başlıca vəzifəsi vətəndaşlara xidmət etməkdir və mənim də tələbim bundan ibarətdir. Ancaq buna nail olmaq üçün çox ciddi ictimai nəzarət olmalıdır. Ona görə insanları narahat edən məsələlər, harada ki, nöqsanlar, çatışmazlıqlar var, onlar deyilməlidir. Onlar müraciətdə öz əksini tapmalıdır ki, biz bunları həll edək. Əminəm ki, belə də olacaq. Bütün dövlət məmurları bilməlidirlər ki, onlar vətəndaşlara vicdanla xidmət etməlidirlər. Təyin edilmiş hər bir icra başçısının qarşısına qoyduğum birinci vəzifə bundan ibarətdir.

Vətəndaşlarımızın rifah halı, onların iqtisadi, maliyyə vəziyyəti ildən-ilə daha da yaxşılaşır. Əgər əvvəlki dövrü götürsək görərik ki, pensiyalar, maaşlar təqribən 10 dəfəyə yaxın artıb. Ancaq bu gün bu, bizi qane edirmi? Yox. Nə etməliyik? Daha da fəal işləməliyik, iqtisadiyyat daha da sürətlə artmalıdır, sərmayə yatırılmalıdır, bürokratik əngəllər aradan qaldırılmalıdır, biznes qurmaq istəyənin qarşısında süni əngəllər qoyulmamalıdır. Yerli icra orqanları çalışmalıdırlar ki, investisiyaları cəlb etsinlər. Çünki iqtisadi artım olmasa, onda bizim maliyyə imkanlarımız da olmayacaq. Bütün bu məsələlər bir-biri ilə bağlıdır. İndiki iqtisadi vəziyyətimiz və gələcək planlarımız tam əminliklə deməyə əsas verir ki, biz ancaq yüksələn xətlə inkişaf edəcəyik və qarşıda duran bütün vəzifələri birlikdə həll edəcəyik. Sağ olun.

**Sakinlər:** Allah Sizə kömək olsun. Allah Sizə, Mehriban xanıma cansağlığı versin.

❖ ❖ ❖

Sonra Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri **Saleh Məmmədov** Buzovna-Mərdəkan-Qala avtomobil yolu layihəsi çərçivəsində görülən işlər barədə Prezident İlham Əliyevə məlumat verdi.

Bildirildi ki, dövlət başçısının 2014-cü ildə imzaladığı sərəncamla təsdiq edilən "2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nda Xəzər rayonunda Buzovna-Mərdəkan-Qala avtomobil yolu layihəsinin həyata keçirilməsi də nəzərdə tutulmuşdu. Bu yol layihəsinin uzunluğu 7,6 kilometr olan Buzovna-Mərdəkan hissəsinin tikintisi başa çatdırılaraq 2013-cü ildə Prezident İlham Əliyevin iştirakı ilə açılış mərasimi olub və əhalinin istifadəsinə verilib. Bu bölgədə yaşayan əhalinin çoxsaylı müraciəti nəzərə alınaraq, Azərbaycan Respublikası Prezidentinin ötən ilin yanvarında və fevralında imzaladığı sərəncamlarla təsdiq edilən 2018-ci ilin dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 5,6 milyon manatı 55 min nəfərin yaşadığı 3 yaşayış məntəqəsini birləşdirən Buzovna-Mərdəkan-Qala avtomobil yolunun 5,4 kilometrlik Mərdəkan-Qala hissəsinin tikintisinin davam etdirilməsi məqsədilə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb. 2018-ci ildə layihənin tikintisi yekunlaşan hissəsi ilə Qala qəsəbəsi arasında yeni nəqliyyat bağlantısı yaratmaq, həmçinin nəqliyyat vasitələrinin normal hərəkətini təmin etmək məqsədilə Mərdəkan-Qala hissəsində 5,2 kilometr uzunluğunda yolun tikintisi aparılıb. Bu yolun 400 metrlik hissəsinin eni 18 metr olmaqla 1-ci texniki dərəcəlidir, yəni 4 hərəkət zolaqlı, digər hissənin eni isə 9 metr olmaqla 2-ci texniki dərəcəyə aiddir, yəni 2 hərəkət zolaqlıdır. Bu yolun istifadəyə verilməsi həm sosial, həm də iqtisadi baxımdan olduqca əhəmiyyətlidir. Belə ki, həmin yol Buzovna, Şüvəlan, Qala, Mərdəkan qəsəbələrini birləşdirməklə bu qəsəbələrdə yaşayan sakinlərin şəhərə çıxışını da rahat təmin etməyə geniş imkan yaradır. Eyni zamanda, bu qəsəbələrdən Qala-Pirallahı yoluna da birbaşa çıxış təmin edilir. Bununla yanaşı, paytaxtın bu hissəsində yaşayanlar şəhərə daxil olmadan bu alternativ yolla Sumqayıt, həmçinin Şamaxı və Quba istiqamətinə də rahat çıxış əldə edirlər. Beləliklə, bu layihənin icrası tıxacların qarşısının alınması, nəqliyyat vasitələrinin hərəkətinin normal və təhlükəsiz təşkili, sürücülərin və sərnişinlərin mənzil başına vaxtında çatması baxımından da mühüm rola malikdir.

**Saleh Məmmədov** dedi:

- Əvvəllər qəsəbənin Yesenin küçəsində tıxac yaranırdı. Mərdəkan və Şüvəlan sakinləri indi bu yolla şəhərə, Zirə, Türkan qəsəbələrinə rahat çıxa bilirlər. Artıq gedib aeroport yolundan dönüb çıxmağa ehtiyac yoxdur. Yol tam açılıb, istifadədədir. Yəqin ki, sakinlər də bunu təsdiq edərlər.

**Sakinlər:** Bəli, çox gözəldir.

**Prezident İlham Əliyev:** Siz qəsəbədaxili yollara da diqqət yetirin. Mən bu barədə də tapşırıq vermişəm. Başqa yollar da təmir olunub.

**Saleh Məmmədov:** Bəli, Sizin tapşırığınıza əsasən, son iki ayda Mərdəkan qəsəbəsində 54 min kvadratmetr yol sahəsinə asfalt döşənib. Şüvəlan qəsəbəsinə su xəttinin çəkilişi işləri başa çatıb. Biz indi orada 10 kilometrlik yolun çəkilişinə başlamışıq. Buzovnada qəsəbəarası 14 yol çəkilib, orada da 32 min kvadratmetr asfalt döşənib. Ən çox işi Binədə görmüşük, 135 min kvadratmetr asfalt vurmuşuq. İşlər hələ davam edir. İnvestisiya planınızda bu il 19 kilometrlik yolun tikintisi nəzərdə tutulub, artıq orada da işlər gedir. Yolun 13 kilometrlik hissəsi hazırdır, 6 kilometrlik hissədə iş davam edir.

**Prezident İlham Əliyev:** Digər rayonlarda da iş gedir, bütün qəsəbələrdə.

**Saleh Məmmədov:** Sizin göstərişinizlə Bakı şəhərinin bütün qəsəbələrində iş gedir.

**Prezident İlham Əliyev:** Bakı şəhərində bir dənə də təmirsiz yol olmamalıdır, həm şəhərdə, həm qəsəbələrdə. Qarşıya belə vəzifə qoyulub və indi müvafiq işlər görülür. Biz bu işləri qısa müddət ərzində görmüşük.

**Sakinlər:** Allah canınızı sağ eləsin, sağ olun.

**Prezident İlham Əliyev:** Sağ olun. Sizi bir daha təbrik edirəm.

❖ ❖ ❖

Dövlət başçısı yolun rəmzi açılışını bildirən lenti kəsdi. Sonda xatirə şəkli çəkdirildi.

# 1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq İkinci Dünya müharibəsində Qələbənin 74-cü ildönümü ilə əlaqədar **qərara alıram:**

1. 1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə 1000 (min) manat məbləğində, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına 500 (beş yüz) manat məbləğində birdəfəlik maddi yardım verilsin.

2. Bu Sərəncamın 1-ci hissəsinin icrası məqsədi ilə:

2.1. Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan 5,0 (beş) milyon manat ayrılsın;

2.2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi həmin vəsaitin Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin xüsusi hesabına köçürülməsini təmin etsin;

2.3. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi birdəfəlik maddi yardımın bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulmuş şəxslərə çatdırılmasını təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 aprel 2019-cu il*

# Leyla ABDULLAYEVA: "Azərbaycan ilə Aİ arasında tərəfdaşlıq münasibətlərinin hüquqi əsasını təşkil edəcək Saziş üzrə danışıqlar davam etdirilir"

Azərbaycanla Avropa İttifaqı arasında Sazişin məhz bu il mayın 13-də imzalanması nəzərdə tutulmayıb.

AZƏRTAC xəbər verir ki, bunu Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Leyla Abdullayeva mətbuatda bu il mayın 13-də Avropa İttifaqı ilə Azərbaycan arasında Sazişin imzalanacağı ilə əlaqədar yayılan məlumata münasibət bildirərkən bildirib.

Leyla Abdullayeva deyib: "Azərbaycan ilə Avropa İttifaqı arasında Sazişin məhz bu il mayın 13-də imzalanması nəzərdə tutulmayıb. Çünki ölkəmizlə Aİ arasında tərəfdaşlıq münasibətlərinin hüquqi əsasını təşkil edəcək Saziş üzrə danışıqlar hələ ki davam etdirilir".

# İlham Əliyevin uğurlu islahatları antiazərbaycançı şəbəkəni təşvişə salıb

Milli Məclisin dünənki iclası cari məsələlərin müzakirəsi ilə işinə başladı. Gündəliyə 19 məsələnin daxil edildiyi iclasda deputatlar fikir və təkliflərini səsləndirərək işğalçı Ermənistanın ölkəmizə qarşı təxribatları, ölkə daxilində mavi yanacaq üçün istehlakçılara verilən 1700 kubmetrlik limitin artırılması, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı aparılan sülh danışıqları və s. məsələlər barədə müzakirə apardılar.






















## Emosional çağırışlarla insanları qıcıqlandırmaq olmaz

Deputat Tahir Kərimli Azərbaycanın ərazi bütövlüyü həll olunmadan jurnalistlərimizin Dağlıq Qarabağa, Ermənistana səfərlərinin təşkil edilməsi barədə təkliflərin yolverilməz olduğunu bildirdi. Onun fikrincə, bəzi şəxslər hərdən sülh danışıqları barədə fikirlər səsləndirirlər.

Ancaq Milli Məclisin Sədr müavini Valeh Ələsgərov deputatın fikirlərinə reaksiya verərək bildirdi ki, indiyədək heç bir vəzifəli şəxs ölkəmizin ərazi bütövlüyü bərpa edilmədən sülh danışıqlarına getməklə bağlı hansısa fikir söyləməyib: “Hər zaman demişik ki, sülh danışıqları ola bilər, amma ölkəmizin ərazi bütövlüyü bərpa edilmədən bu, mümkün deyil. Dövlətin mövqeyi bəllidir, yalnız Azərbaycanın ərazi bütövlüyünün təmini əsasında bu danışıqlar baş tuta bilər. Emosional çıxışlarla, çağırışlarla insanları qıcıqlandırmaq olmaz. Siyasətdən xəbəri olan insan hər bir sözünə diqqət yetirib, dəyər verməlidir”.

Deputat Fazil Mustafanın mavi yanacaq üçün istehlakçılara verilən 1700 kubmetrlik limitin artırılması təklifini həmkarı Qənirə Paşayeva da dəstəklədi. Deputatlar limitin ləğvinin deyil, artırılmasının tərəfdarıdırlar.

## Antiazərbaycançı şəbəkənin istənilən təxribatı iflasa məhkumdur

Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov həmkarlarının toxunduqları bəzi məsələlərə öz münasibətini bildirərək dedi ki, Azərbaycan dövləti və Prezident İlham Əliyevin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyi dünyaya bəllidir.

Komitə sədri son zamanlar antiazərbaycançı şəbəkənin “aktivliyinə” də toxunaraq qeyd etdi ki, Azərbaycan istənilən mühüm proseslər astanasında olarkən ölkəmizə qarşı hücumlar başlayır. Yerli “5-ci kolon” da onlara dəstək verir: “Məkrli niyyətlərlə hər zaman ölkəmizə şər-böhtan atan qüvvələr çalışırlar ki, Azərbaycanın xeyrinə olan məsələlər reallaşmasın. Prezidentin apardığı islahatlar antiazərbaycançı şəbəkəni, onların daxildəki buyruq qullarını çox narahat edir. Ancaq onlar da yaxşı bilirlər ki, hər zaman məğlub olublar. Ucuz qarayaxma kampaniyasına əl ataraq, yəni, kiməsə xəsarət yetirib iqtidarın üzərinə atmaqla heç nəyə nail olmayacaqlar”.

Milli Məclisin Sədri Oqtay Əsədov da komitə sədrinin fikirlərinə dəstək verərək bildirdi ki, antiazərbaycançı şəbəkənin istənilən təxribatı iflasa məhkumdur.

## Cəmiyyətə normal proqramlar təqdim olunmalıdır

Çıxışlardan sonra gündəliyin müzakirəsi başladı. İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurası üzvlərinin seçilməsi haqqında sənədi təqdim edən parlamentin Mədəniyyət komitəsinin sədri Rafael Hüseynov bildirdi ki, Yayım Şurasına Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının prorektoru Yusif Babanlının, Azərbaycan Qalaqapı Federasiyasının vitse-prezidenti Orxan Muxtarovun, Qafqaz Müsəlmanları İdarəsi sədrinin birinci müavini Salman Musayevin, Azərbaycan Bəstəkarlar İttifaqının katibi Zemfira Qafarovanın və ittifaqın baş məsləhətçisi Cəmilə Həsənovanın namizədliyi irəli sürülüb.

İdman federasiyaları, dini konfessiyalar və yaradıcı təşkilatlar tərəfindən irəli sürülmüş namizədlər arasından hər təşkilatdan 1 nəfər olmaqla, Milli Məclis tərəfindən 6 il müddətinə təsdiq edilməlidir. Səsvermə nəticəsində İTV-nin Yayım Şurasına idman federasiyalarından Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının prorektoru Yusif Babanlı, dini konfessiyalardan Qafqaz Müsəlmanları İdarəsi sədrinin birinci müavini Salman Musayev, yaradıcılıq təşkilatları tərəfindən Azərbaycan Bəstəkarlar İttifaqının katibi Zemfira Qafarova seçildilər.

Deputatlardan Fərəc Quliyev, Sahib Alıyev, Hikmət Məmmədov, Aqil Abbas çıxış edərək televiziyada son zamanlar baş verən dəyişikliklərdən, yeniliklərdən söz açdılar. Komitə sədri Siyavuş Novruzov isə bildirdi ki, özəl telekanallar biznes qurumudur, bu telekanallarda əxlaqa zidd verilişlər nümayiş olunanda Milli Televiziya və Radio Şurası mövqeyini ortaya qoyur, qərarlar qəbul edir.

## Pensiya yeni qayda ilə hesablanacaq

“Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında” və “Əmək pensiyaları haqqında” qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi ilə bağlı Milli Məclis Sədrinin birinci müavini, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov məlumat verdi. Bildirdi ki, təklif olunan dəyişiklik bu qurumda çalışanların pensiya təminatının yaxşılaşdırılmasına xidmət edir. Belə ki, bu sənədə əsasən, kəşfiyyat və əks-kəşfiyyat subyektlərinin hərbi qulluqçularının pensiyası artırılacaq.

Hazırkı qanunvericiliyə əsasən, kəşfiyyat və əks-kəşfiyyat subyektlərinin hərbi qulluqçularının pensiyası onların xidmətdən tərxis olunan günə aldıqları pul təminatından hesablanır. Layihədə təklif olunur ki, kəşfiyyat və əks-kəşfiyyat subyektlərinin hərbi qulluqçuları tərxis olunarkən onların pensiyası sərəncama götürüldüyü günə aldıqları pul təminatından hesablansın.

### İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasının üzvlərinin seçilməsi haqqında

**Azərbaycan Respublikası Milli Məclisinin Qərarı**

“İctimai televiziya və radio yayımı haqqında” Azərbaycan Respublikası Qanununun 17.2-17.4-cü və 17.6-cı maddələrinə əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

Aşağıdakı şəxslər 6 il müddətinə İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasının üzvü seçilsinlər:

Babanlı Yusif Məmməd oğlu - namizədliyi idman federasiyaları tərəfindən irəli sürülmüşdür;

Musayev Salman Musa oğlu - namizədliyi dini konfessiyalar tərəfindən irəli sürülmüşdür;

Qafarova Zemfira Həsən qızı - namizədliyi yaradıcılıq təşkilatları tərəfindən irəli sürülmüşdür.

***O.ƏSƏDOV,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 23 aprel 2019-cu il*

## Azərbaycan dünyaya sülh çağırışları edir

Müzakirələr zamanı çıxış edən deputat Fərəc Quliyev Prezident İlham Əliyevin hər zaman hərbçilərə diqqət və qayğı ilə yanaşdığını söyləyərək bildirdi ki, müharibə ölkəsi olmasına baxmayaraq, Bakıda müharibəyə çağırışa dair plakatlar yoxdur.

Spiker Oqtay Əsədov deputatın bu fikri ilə razılaşmadı. Bildirdi ki, Azərbaycan dünyaya sülh çağırışları edir: “Azərbaycan Dağlıq Qarabağda yaşayan ermənilərə Azərbaycan vətəndaşları deyir. Biz dünyaya bu cür çağırışlar edirik. Əgər Azərbaycanın şərtlərinin yerinə yetirilməsi və məsələnin sülh yolu ilə həlli imkanı varsa, biz nəyə görə buna qarşı çıxmalıyıq? Ermənistanda nazir çıxış edərək deyir ki, biz Azərbaycandan torpaq almalıyıq. Onlar başa düşürlər ki, bununla bağlı heç nəyə nail olmayacaqlar. Ermənistan bu cür çıxışlarla bizi qızışdırmaq istəyir. Biz onların təxribatına getməməliyik. Azərbaycan Prezidenti bütün çıxışlarında ölkəmizin mövqeyini açıqlayaraq deyir ki, ərazi bütövlüyümüz danışıqlar predmeti deyil”.

Çıxışlardan sonra sənəd səsverməyə çıxarılaraq qəbul edildi.

## Əmək pensiyasının sığorta hissəsinə hesablanan iki əlavə ləğv edildi

İclasda, həmçinin Milli Məclisə bir məktubla daxil olan 4 məsələ - Su Məcəlləsində, Meşə Məcəlləsində, Torpaq Məcəlləsində və Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında (ikinci oxunuş), “Meliorasiya və irriqasiya haqqında”, “Əhalinin radiasiya təhlükəsizliyi haqqında”, “Balıqçılıq haqqında”, “Elektroenergetika haqqında” və “Nəqliyyat haqqında” qanunlarda dəyişiklik edilməsi barədə (ikinci oxunuş), “Ekoloji təhlükəsizlik haqqında”, “Su təchizatı və tullantı suları haqqında”, “Avtomobil yolları haqqında”, “Ətraf mühitə dair informasiya almaq haqqında”, “Aviasiya haqqında” və “İnformasiya əldə etmək haqqında” qanunlarda dəyişiklik edilməsi barədə (ikinci oxunuş), “İctimai iştirakçılıq haqqında”, “Dəniz limanları haqqında”, “Yaşıllıqların mühafizəsi haqqında” qanunlara dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihələri də təsdiqləndi.

“Əmək pensiyaları haqqında” qanuna dəyişiklik edilməsi barədə qanun layihəsi haqqında parlamentin Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli məlumat verdi. Bildirdi ki, dəyişikliklər “Əmək pensiyaları haqqında” qanunu Prezident İlham Əliyevin “Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında” 25 fevral 2019-cu il tarixli sərəncamına uyğunlaşdırmaq məqsədi daşıyır.

Başqa sözlə, sərəncamda I qrup əlillərə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslərə qulluq üçün əmək pensiyasının sığorta hissəsinə əlavə əvəzinə I qrup əlilliyi olan şəxslərə qulluq edənlərə və sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara qulluq edənlərə 50 manat məbləğində və müharibə veteranlarına kommunal, nəqliyyat və digər xidmətlərə görə sosial müavinət, habelə döyüşən ordunun tərkibində xidmət etmiş müharibə iştirakçılarının əmək pensiyasının sığorta hissəsinə əlavə əvəzinə 80 manat məbləğində Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi əksini tapıb.

Dövlət başçısı 15 aprel 2019-cu il tarixdə “I dərəcə əlilliyi olan şəxslərə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara qulluq edən şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü” və “Müharibə veteranlarına Azərbaycan Respublikası Prezidentinin təqaüdü”nün təsis edilməsi haqqında müvafiq fərmanlar imzalayıb. Sənəd deputatlar tərəfindən müsbət qarşılandı.

## Standartlaşdırma ilə bağlı yeni qanun layihəsi ikinci oxunuşdan keçdi

Deputatlar, həmçinin “Auditor xidməti haqqında”, “İnvestisiya fəaliyyəti haqqında”, “Müflisləşmə və iflas haqqında”, “Kiçik sahibkarlığa dövlət köməyi haqqında”, “Yeyinti məhsulları haqqında”, “Notariat haqqında”, “Kredit ittifaqları haqqında” və “Dövlət əmlakının özəlləşdirilməsi haqqında” qanunlarda (ikinci oxunuş), “Sığorta fəaliyyəti haqqında”, “Bank olmayan kredit təşkilatları haqqında”, “İnvestisiya fondları haqqında”, “Qiymətli kağızlar bazarı haqqında” (ikinci oxunuş) qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələrinə də səs verib təsdiqlədilər.

Gündəliyin sonuncu məsələsi “Standartlaşdırma haqqında” qanun layihəsi idi. İkinci oxunuşda müzakirəyə çıxarılan sənəd 5 fəsil və 26 maddədən ibarətdir. Qanun standartlaşdırmanın məqsəd və prinsiplərini, standartlaşdırma sahəsində normativ sənədlərin hazırlanması, qəbulu və tətbiqini, bu sahədə fəaliyyətin maliyyələşdirilməsi mənbələri və digər məsələləri müəyyən edir.

Bu qanun layihəsi də səsverməyə çıxarılaraq ikinci oxunuşda təsdiqləndi. Bununla da Milli Məclisin plenar iclası başa çatdı.

***Rəşad BAXŞƏLİYEV,***
***Fərman BAĞIROV (foto),***
***“Azərbaycan”***

# Azərbaycanın “Formula-1” yüksəkliyi, milli qürur hissi və Əli Kərimli kimilərin mədə təfəkkürü

“İyirmi beş il tarixi nöqteyi-nəzərdən dövlət qurmaq üçün çox qısa bir dövrdür. Geosiyasi və daxili proseslər sabit məcrada cərəyan edirsə, milli dövlətin formalaşması üçün bu müddət yetərli hesab oluna bilər, lakin onun inkişafı daha çox zaman və güc tələb edir. Əgər hər hansı bir xalq cəmi 25 ilə, olduqca gərgin beynəlxalq və regional şəraitdə sabit və milli birliyə söykənən vətəndaş birliyi yarada bilibsə, güclü iqtisadiyyata, yüksək beynəlxalq nüfuza malik, regionun siyasi, iqtisadi və humanitar mərkəzinə çevrilən və qlobal proseslərdə öz sözünü deməyə qadir müstəqil bir dövlət qurmağı bacarıbsa, o xalq və həmin xalqı təmsil edən iqtidar həqiqətən də böyük alqışa layiqdir”.



AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun “Azərbaycanın “Formula-1” yüksəkliyi, milli qürur hissi və Əli Kərimli kimilərin mədə təfəkkürü” adlı məqaləsində yer alıb.

Əli Həsənov məqaləsində daha sonra yazır: “İndi heç kim üçün sirr deyil ki, Azərbaycandakı bugünkü iqtidar xalqa söykənərək özünü tam təmin edən, milli iradəsinə söykənən, dayanıqlı və gündən-günə inkişaf edən bir dövlət qurub. Bu mənada, biz ümummilli lider Heydər Əliyevin təməlini qoyduğu və Prezident İlham Əliyevin idarəçiliyi dövründə bütün mümkün yüksəklikləri fəth edən Azərbaycanımızı təkcə Vətənimiz olduğuna görə deyil, həm də, sözün əsl mənasında, qüdrətli olduğuna görə sevirik.

Bizim gücümüz təkcə enerji resurslarında, əlverişli coğrafiyada deyil, həm də bütün bunları real gücə çevirən Prezident İlham Əliyevin düzgün, milli maraqlara uyğun, prinsipial və ardıcıl siyasətindədir. Bunu görmək və başa düşmək üçün təbii sərvətlərlə zəngin olub öz gələcəyini qura bilməyən bir sıra ölkələrin nümunəsinə nəzər salmaq kifayətdir. Buna görə də istər daxildə, istərsə də xaricdə bəzi şəxslər və təşkilatlar tərəfindən Azərbaycana və mövcud hakimiyyətə qarşı irəli sürülən ittihamlar hədəfsiz olur, səmimi səslənmir və təbii ki, ictimaiyyət tərəfdən də qəbul olunmur.

Axı onlar iqtidarı nəyə görə tənqid edirlər? Məsələn, AXCP sədri Əli Kərimli öz Facebook səhifəsində iddia edir ki, bu günlərdə Bakıda növbəti dəfə start götürəcək “Formula-1” yarışları “zülmdür”, kimlərinsə pul qazanması, hakimiyyətin təbliği üçün vasitədir. Sən demə, dünyada idman yarışları sırasında populyarlığına görə üçüncü sırada yerləşən “Formula-1” səbəbindən avtomobillərin şəhərin mərkəzində hərəkətinin məhdudlaşdırılması insanların “əsəbini tarıma çəkir”.

Təbii ki, bu, özünü siyasətçi adlandıran, partiya rəhbəri hesab edən birisinə yaraşmayan, olduqca qərəzli yanaşmadır. Çox təəssüf ki, bəziləri müxalifətçilik missiyasının əsl mahiyyətini başa düşmür və anlamırlar ki, cəmiyyətdəki prosesləri, hadisələri yaxından izləmək imkanına malik və siyasi cəhətdən kifayət qədər yetkin olan vətəndaşlarımız davamlı şəkildə bədbinlik aşılayan, hər şeyi qara rəngdə, öz siyasi maraqlarına uyğun təsvir edən insanların səmimiyyətinə inanmır.

“Formula-1” onlarla ölkədə nümayiş etdirilir, bütün dünyada 500 milyonluq izləyici auditoriyasına malikdir. Deməli, yarım milyard insan Bakı şəhərinin müasir görünüşünü seyr edir, paytaxtımızla vizual tanış olur. Təbii ki, ildən-ilə ölkəmizə gələn turistlərin sayının artmasında bu yarışmanın böyük payı var. Bundan başqa, Bakı Şəhər Halqası Əməliyyat Şirkətində 113 daimi işçi çalışır, yarışlar yaxınlaşdıqca işə cəlb olunanların sayı artır və təxminən min nəfəri ötür. Əminəm ki, yüksək əməkhaqqı alan mindən çox insan, onların ailə üzvləri heç də Əli Kərimlinin bədbin iddialarını bölüşmürlər.

Eləcə də yarışmanı maraqla izləyən on minlərlə vətəndaşımız da bu idman bayramından böyük zövq alır və heç də müvəqqəti tıxac haqqında düşünmür. Statistika göstərir ki, 2018-ci ildə “Formula-1” Azərbaycan Qran-prisində ümumilikdə 94 min tamaşaçı iştirak edib. Müxalifətin əsəbi gərginliyini və bu qədər sərt reaksiyasını başa düşmək olar: bu rəqəm “Məhsul” stadionuna toplaşanların sayından ən azı 30 dəfə çoxdur.

“Formula”1” Azərbaycan Qran-prisi könüllülük hərəkatının inkişafına mühüm töhfə verir, gənclərimizin daxili potensialının açılması, onların öz bacarıqlarını nümayiş etdirməsi üçün əlverişli şərait yaradır. Yenə də statistikaya əsasən, 2016-cı ildə bu yarışlara 5 min, sonrakı illərdə isə 3 min könüllü cəlb edilib. Sevindirici haldır ki, gənclərimiz könüllülük hərəkatına böyük həvəslə qoşulur və ötən 4 il ərzində könüllü olmaq üçün müraciət edənlərin sayı 50 min nəfəri ötüb.

Onu da qeyd etmək istərdim ki, “Formula- 1”i izləmək üçün ölkəmizə gələn xarici turistlərin, avtomobilsevərlərin sayında da ildən-ilə ciddi artım müşahidə olunur. Builki yarışmanı izləmək üçün 78 ölkədən avtoidman həvəskarı Azərbaycana təşrif buyurub. Lakin bu, nisbi göstəricidir. Qeyd etdiyimiz kimi, bütün dünyaya nümayiş etdirilən Qran-prinin milyonlarla izləyicisi Bakının gözəlliyini seyr edir və onların bir qismi növbəti illərdə ölkəmizə turist kimi gəlir.

2016-cı ildə ilk “Formula-1”in şərtləri açıqlananda müxalifət bu yarışmanın təşkilinə 50 milyon dollar sərf olunacağını ciddi tənqid etdi. Dərhal riyazi hesablamalar aparıldı: bu pula neçə qaçqının güzəranını yaxşılaşdırmaq, neçə müəllimin maaşını artırmaq, neçə aztəminatlı ailəyə əlavə yardım vermək olar və s. Təbii ki, istənilən siyasi qüvvə, siyasətçi xalqın güzəranı, ayrı-ayrı təbəqələrin ehtiyaclarının daha yaxşı ödənilməsinin yollarını axtarmalı və bu məsələdə öz mövqeyini bildirməlidir. Lakin öz siyasi maraqlarına uyğun yox, obyektiv, qərəzsiz, olduğu kimi.

“PricewaterhouseCoopers” (Pwc) beynəlxalq audit şirkətinin 2017-ci ilin sonlarında apardığı müstəqil araşdırmanın nəticələrinə görə, Bakıda keçirilmiş ilk iki “Formula-1” yarışı ölkə iqtisadiyyatına ümumilikdə 277.3 milyon dollar gəlir gətirib. Yeni yarışların iki ilinə yatırılan 100 milyon dollar iki dəfədən çox qazanc verib. O da bəllidir ki, əsas xərclər - müvafiq avadanlıqların alınması, bu və ya digər infrastruktur qurğuların quraşdırılması yarışın ilk ilində həyata keçirilir, sonrakı illərdə xərclər get-gedə azalır. Deməli, bu və növbəti illərdə qalan qazanc daha da çox olacaq.

“Formula-1” həm də dövlətin nüfuzunun, prestijinin göstəricisi, qürur mənbəyidir. Dünyada bu miqyasda tədbirlərə evsahibliyi edə biləcək dövlətlərin sayı heç də çox deyil. Bunun üçün lazımi infrastruktura, çevik qərarlar qəbul edib həyata keçirmək əzminə, təhlükəsizliyi təmin etmək qüdrətinə malik olmaq gərəkdir. Azərbaycan isə Avropa Oyunlarının keçirildiyi ilk ölkə olmaqla, IV İslam Həmrəyliyi Oyunlarına, çoxsaylı müxtəlif idman növləri ilə bağlı beynəlxalq yarışlara ard-arda evsahibliyi etməklə kifayət qədər böyük kütləvi tədbirləri təşkil etməyə, təhlükəsiz şəraitdə keçirməyə hazır olduğunu nümayiş etdirib.

“Formula-1” yarışının rəhbərliyindəki dəyişikliklər zamanı aparılmış təhlillər də göstərdi ki, Azərbaycan paytaxtı bu yarışların keçirilməsi üçün ən münasib məkanlardan biridir. Beləliklə, sadaladığımız faktlar da göstərir ki, “Formula-1” Azərbaycanın dünyada təbliği, insanların işlə təmin olunması, gənclərin ictimai faydalı fəaliyyətə cəlb edilməsi, ölkəyə turist axınının güclənməsi, ən əsası isə, ölkənin iqtisadi mənafeyi baxımından olduqca faydalı tədbirdir. Buna görə də istər hakimiyyət, istərsə də bütövlükdə cəmiyyət tıxaca allergiyası olan bir-iki siyasi cığalın iddialarını qəbul etmir və etməyəcək də.

Hamınızı bu gözəl idman yarışını seyr etməyə dəvət edirəm”.

# AzMİU-da Azərbaycan və Türkiyə ali məktəblərinin rəhbərlərinin iştirakı ilə “dəyirmi masa” keçirilib

Azərbaycan Memarlıq və İnşaat Universitetində (AzMİU) ölkəmizin aparıcı ali təhsil müəssisələrinin rəhbərləri və Türkiyənin nüfuzlu İstanbul Texniki Universitetinin (İTU) nümayəndə heyətinin iştirakı ilə “dəyirmi masa” keçirilib.

AzMİU-dan AZƏRTAC-a bildirilib ki, “dəyirmi masa”da İTU-nun rektoru, professor Mehmet Karacanın “İstanbul Texniki Universiteti nümunəsində XXI əsrdə universitetlərin dünəni, bu günü və sabahı” mövzusunda məruzəsi ətrafında geniş fikir mübadiləsi aparılıb.

Tədbiri giriş sözü ilə açan AzMİU-nun rektoru, professor Gülçöhrə Məmmədova ölkənin aparıcı ali təhsil müəssisələrinin rəhbərlərinin və türkiyəli qonaqların iştirak etdikləri görüşün əhəmiyyətini vurğulayıb, həmkarlarını İTU-nun təcrübəsini öyrənməyə dəvət edib.

Sonra məruzə ilə çıxış edən Mehmet Karaca müasir dünyanın tələblərinə uyğun olaraq hazırda təhsilin forma və məzmununun dəyişdiyini, yeni biznes strukturlarının yaradılması ideyasının ortaya çıxdığını, təhsilalanların biznes ideyalarının gerçəkləşməsi üçün startap layihələrinin əhəmiyyətini vurğulayıb. Rektor İTU-da yaradılan texnoparkın fəaliyyətindən də danışıb, universitet-sənaye işbirliyinin əməkdaşlığının faydalı nəticələrini qeyd edib.

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru, professor Ədalət Muradov, Bakı Mühəndislik Universitetinin rektoru, professor Havar Məmmədov, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru, professor Mustafa Babanlı və digərləri ölkəmizdə startap hərəkatının geniş vüsət aldığını, gənclərin bu sahəyə marağının artdığını bildirib, ali təhsil ocaqlarında texnoparkların yaradılmasında ortaya çıxan çətinliklərdən danışıblar.

Müzakirələrdə Mehmet Karaca texnopark ənənəsinin öyrənilməsində Azərbaycan universitetlərinə dəstək göstərməyə hazır olduğunu bildirib, rektorları və ali məktəb təmsilçilərini İTU Texnoparkının fəaliyyətini izləmək və təcrübəsini öyrənmək üçün Türkiyəyə dəvət edib.

# Sosial islahatlar paketi - yüksək rifahın təminatı

Əvvəli 1-ci səh.

2019-cu ilin ilk rübündə elə bir sahə yoxdur ki, maaşlarda, eləcə də sosial müavinətlər və təqaüdlərdə artımlar edilməsin. Prezident İlham Əliyev ilk növbədə şəhid ailələri, qaçqın və məcburi köçkünlərin sosial durumunu diqqətdə saxlamaqla bu kateqoriyaya aid insanlara öz dəstəyini göstərdi. Şəhid ailələrinə istisnasız olaraq birdəfəlik müavinətlərin verilməsi, müavinətin 242 manatdan 300 manata, Əfqanıstan veteranlarının müavinətinin 220 manatdan 300 manata yüksəldilməsi, məcburi köçkünlərə verilən aylıq müavinətlərin 50 faiz qaldırılması Prezidentin bu kateqoriyadan olan insanlara göstərdiyi diqqət və qayğısının bariz nümunəsidir. İlin əvvəlindən minimum əməkhaqqının 38 faiz artırılaraq 130 manatdan 180 manata çatdırılması, minimum pensiyaların 40 faiz artırılaraq 116 manatdan 160 manata qədər qaldırılması, 100 minə yaxın tələbənin təqaüdünün yüksəldilməsi isə xalq tərəfindən rəğbətlə qarşılanıb. Dövlət büdcəsinin vəsaiti hesabına doktorantların, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrin təqaüdlərinin orta hesabla 20 faiz artırılması çox təqdirəlayiq addım kimi qiymətləndirilib.

Həmçinin aprelin 1-dən etibarən dövlət başçısının "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" sərəncamı qüvvəyə minməklə 14 kateqoriya üzrə sosial müavinətlər, 7 kateqoriya üzrə Prezident təqaüdləri orta hesabla 100 faiz artdı. Ümumilikdə 576,8 min nəfəri əhatə edən bu sərəncamın icrası üçün cari ilin 9 ayında əlavə olaraq 302 milyon manat, illik isə əlavə olaraq 400 milyon manat vəsait ayrılacaq. Bu, 600 minə yaxın insanın (buraya əlilliyi olan 300 min şəxs də daxildir) sosial durumunun yaxşılaşdırılması istiqamətində atılan mühüm addımdır.

Həmçinin Aprel döyüşləri şəhidlərinin ailələri, yaralanmış əsgər və zabitlər dövlətin hərtərəfli qayğısı ilə əhatə olunublar. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq şəhid ailələri və həmin döyüşlərdə yaralanaraq əlil olmuş hərbçilərlə bağlı mühüm sosial müdafiə tədbirləri həyata keçirilib. Yəni Aprel döyüşləri ilə əlaqədar əlilliyi olanlar üçün müavinət və təqaüdlər 100 faizədək artırılıb.

Bütövlükdə ilin əvvəlindən təklif edilən sosial paket 3 milyondan çox insanı əhatə etməklə dövlət büdcəsindən 2 milyard manatdan artıq vəsaitin ayrılmasını nəzərdə tutur.

Neftçilər parkında vətəndaşlarla səmimi söhbət zamanı Prezident bütün sahələrdə artımların davamlı olacağını bir daha vurğulayaraq dedi ki, iqtisadi islahatların uğurları ölkənin sosial durumuna da öz müsbət təsirini göstərməkdədir: "İndi bizim maliyyə imkanlarımız artıb. Çünki ölkəmizdə aparılan ciddi iqtisadi islahatlar bizə əlavə gəlirlər gətirib. Artıq bu ilin əvvəlindən büdcəyə kifayət qədər böyük məbləğ daxil oldu və yığılan əlavə büdcə gəlirləri mənim göstərişimlə ilk növbədə vətəndaşların sosial müdafiəsinə istiqamətləndirilməlidir, o cümlədən maaşların, pensiyaların qaldırılmasına. Baxmayaraq ki, biz mart ayında bu qərarı qəbul etdik və aprelin əvvəlindən sosial müavinətlərin artımı qüvvəyə mindi, burada da sosial müavinətlər orta hesabla iki dəfə artırılıb və 600 minə yaxın insan bu proqramla əhatə olunub".

Ölkə rəhbəri bir daha bəyan etdi ki, bu istiqamətdə işlər davam etdiriləcək, vətəndaşların daha yaxşı yaşamaları üçün minimum əməkhaqqı, minimum pensiya bundan sonra da qaldırılacaq.

Dövlət başçısının bu fikirlərindən aydın olur ki, həyata keçirilən uğurlu siyasət, iqtisadi islahatlar və görülən işlərin şəffaflaşdırılması prinsipi nəticəsində artan büdcə gəlirlərinin, maliyyə imkanlarının böyük hissəsi bundan sonra da məhz sosial sferaya yönəldiləcək və bu da xalqın dövlətə inamını daha da gücləndirəcək.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# AHİK-də Türkiyə həmkarlar ittifaqlarının nümayəndə heyəti ilə görüş keçirilib

Aprelin 22-də Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında "Kənd-Qida-İŞ" Həmkarlar İttifaqı Federasiyasının dəvəti ilə Bakıda səfərdə olan Türkiyə Cümhuriyyətinin "Şeker-İŞ" Həmkarlar İttifaqının nümayəndə heyətinin AHİK-in sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyevlə görüşü keçirilib.

AHİK-dən AZƏRTAC-a bildiriblər ki, qonaqları salamlayan Səttar Möhbalıyev onlara Azərbaycan həmkarlar ittifaqlarının fəaliyyəti haqqında məlumat verib. Bildirib ki, bu gün Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası öz sıralarında 1 milyon 500 min həmkarlar ittifaqı üzvünü birləşdirir. Hər ay ittifaq üzvlərinin sayının artırılması üçün mütəmadi olaraq işlər aparılır. Yeni həmkarlar ittifaqı komitələri yaradılır. Buna misal olaraq deyib ki, bu yaxınlarda gömrük işçilərinin həmkarlar ittifaqı komitəsi yaradılıb. Həmin təşkilatda həmkarlar ittifaqı yaradılması üçün uzun müddət iş aparılıb. Hazırda yeni yaradılan həmkarlar ittifaqının 7 minə yaxın üzvü var. S.Möhbalıyev qeyd edib ki, fəaliyyətimizin əsas istiqamətlərindən biri də özəl və transmilli sektorda həmkarlar ittifaqı təşkilatlarının yaradılmasıdır. Bu yolda bir sıra məhdudiyyətlər və əngəllər olsa da, məqsədimizə nail ola bilirik.

S.Möhbalıyev AHİK-in dövlət orqanları ilə işgüzar münasibətlərinin olduğunu diqqətə çatdıraraq bildirib ki, Azərbaycan Respublikasının Nazirlər Kabineti, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası arasında hər 2 ildən bir Baş Kollektiv Saziş imzalanır. Cəmiyyətin bütün sahələrini özündə ehtiva edən bu saziş uzun müzakirələrdən sonra hazırlanır və dediyim kimi, ölkənin Baş naziri, AHİK və Sahibkarların Milli Konfederasiyası tərəfindən imzalanır. Daha sonra isə bütün sahə həmkarlar ittifaqları Baş Kollektiv Sazişin müddəalarını rəhbər tutaraq işəgötürənlərlə kollektiv sazişlər bağlayırlar.

Son zamanlarda Azərbaycan Prezidenti tərəfindən həyati əhəmiyyətli sərəncamların imzalanmasını qonaqların nəzərinə çatdıran AHİK sədri bu sərəncamların verilməsi nəticəsində işləyən əhalinin əməkhaqlarının artırılmasını, sosial müavinətlərin səviyyəsinin yüksəldilməsini, yeni müavinətlərin təyin edilməsini, pensiyaların, tələbə təqaüdlərinin artırılmasını və ümumilikdə insanların sosial rifahının yüksəldilməsini qeyd edərək bu istiqamətdə xeyli işlərin görüldüyünü diqqətə çatdırıb.

S.Möhbalıyev Azərbaycan-Türkiyə əlaqələrinin inkişafı sahəsində böyük ölçüdə işlər görüldüyünü, hər iki ölkəyə qarşılıqlı sərmayələrin qoyulması ilə iqtisadiyyatın yüksələn xətlə inkişaf etdiyini söyləyib.

Nümayəndə heyətinin başçısı, Türkiyənin "Şeker-İŞ" həmkarlar ittifaqının prezidenti İsa Gök ölkəmizə səfərlərindən məmnunluqlarını ifadə edərək Azərbaycan həmkarlar ittifaqlarının fəaliyyəti ilə yaxından tanış olmaları üçün onlara hər cür şəraitin yaradıldığını deyib. Buna görə AHİK rəhbərliyinə nümayəndə heyəti adından dərin təşəkkürünü bildirib. Qonaq Azərbaycana 20 il bundan əvvəl səfər etdiyini, ötən illər ərzində ölkəmizin böyük bir inkişaf yolu keçdiyinin şahidi olmasını, heyranlığını dərin məmnunluq hissi ilə dilə gətirib. Buna görə xalqımızı təbrik edib.

Görüşdə hər iki ölkənin həmkarlar ittifaqları arasında əməkdaşlığın daha da genişləndirilməsi, əlaqələrin möhkəmləndirilməsi və qarşılıqlı maraq doğuran digər məsələlərin müzakirəsi də yer alıb.

# Dövlət başçısının fərmanı sahibkarların və Sahibkarlığın İnkişafı Fondunun problemlərini həll edəcək



Azərbaycanda qeyri-neft sektorunun inkişafı, qeyri - neft ixracının həcminin artırılması ölkəmizdə son illər həyata keçirilən iqtisadi siyasətin əsasını təşkil edir. Bu uğurlu siyasətin nəticəsi olaraq son 15 ildə qeyri-neft sektorunda 3 dəfəyə yaxın artım qeydə alınıb. Müasir dövrün çağırışlarına uyğun olaraq son vaxtlar ölkəmizin daha da inkişafına yönələn ciddi islahatlar həyata keçirilir. Sahibkarlar günü ərəfəsində ölkəmizin aparıcı sahibkarlıq nümunələrindən biri olan "Mətanət A" şirkətinə son dövrün mühüm islahatlarının sahibkarlığın inkişafına və yeni istehsal sahələrinin yaradılmasına təsirinin dəyərləndirilməsi ilə bağlı müraciət etdik. Şirkətin İnvestisiya Layihələri üzrə vitse-prezidenti Mayis Qasımov "Azərbaycan" qəzetinin suallarını cavablandırıb.

**- İlk sualımız təbii ki, islahatlarla bağlı olacaq. Necə düşünürsünüz, son dövrün islahatları iqtisadiyyatımızın inkişafına nə kimi töhfələr verəcək?**

- Möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən iqtisadi islahatlar ölkəmizdə sahibkarlığın inkişafında yeni bir səhifə açıb. Azərbaycanda özəl sektorun, sahibkarlığın inkişafı dövlət başçısının əsas prioritetlərindəndir. Biznes mühitinin bütün sahələri, xüsusilə biznesə başlama, tikinti üçün icazələrin alınması, maliyyə mənbələrinə çıxış imkanlarının artırılması, əmlakın qeydiyyatı, xarici ticarətin aparılması istiqamətində qəbul edilən önəmli qərarlar ölkəmizdə sahibkarlığın cəlbediciliyini artırıb. Sahibkarlıq sahəsində lisenziya və icazələr sisteminin təkmilləşdirilməsi, investisiya layihələrinin güzəştli şərtlərlə kreditləşdirilməsi, sahibkarlıq subyektlərində aparılan yoxlamaların 2021-ci ilədək dayandırılması, investisiyaların və ixracın təşviqi, vergi, gömrük sahəsində islahatlar və digər tədbirlər son illərdə sahibkarlığın inkişafına çox böyük dəstək olub. Həyata keçirilən islahatlar ölkəmizin inkişaf etdirilməsinə, insanların rifah halının daha da yaxşılaşdırılmasına yönəlib.

**- Geridə qoyduğumuz il "Mətanət A" şirkəti üçün hansı uğurlarla yadda qaldı?**

- "Mətanət A" şirkəti ümummilli lider Heydər Əliyevin xeyirduası və möhtərəm Prezident İlham Əliyevin dəstəyi ilə ölkəmizdə çoxsaylı istehsal sahələri, yeni iş yerləri yaradıb, öz məqsədyönlü fəaliyyəti ilə ölkə iqtisadiyyatının inkişafına töhfələr verib, dövlətimizin regional və qlobal səviyyədə rəqabətədavamlı və uğurlu sahibkarlıq nümunələrindən birinə çevrilib. Cənab Prezident "Mətanət A" şirkətinin "Ağdağ" müasir gips zavodunun açılışında çıxışı zamanı sərhədyanı ərazilərdə istehsal obyektlərinin tikilməsi zərurətini vurğulamışdı. Biz bu tövsiyəni rəhbər tutaraq artıq Qazax rayonunun Daşsalahlı kəndində dünyanın ən innovativ texnologiyalarına əsaslanan Qazax əhəng zavodunun tikintisini başa çatdırdıq. Zavodun yaxın zamanda dövlət başçısının iştirakı ilə açılışı gözlənilir.

**- Bu zavodun dünyadakı ən son innovativ texnologiyaya əsaslandığını bilirik. Onun tikintisində dövlətin güzəştli kreditlərindən yararlandınızmı?**

- Qeyd etdiyim kimi, dövlətin dəstəyini hər zaman hiss etmişik. Qazax əhəng zavodunun tikintisi və avadanlıqların alınması üçün "Mətanət A" şirkətinin öz vəsaitindən əlavə, Sahibkarlığın İnkişafı Fondu tərəfindən də kredit ayrılıb, kredit müvəkkil bank olaraq "DəmirBank" ASC vasitəsilə verilib.

**- "DəmirBank" ASC-nin lisenziyasının ləğv edilməsi bu məsələ ilə bağlı çətinlik yaratdımı?**

- Bəli, yaratdı. "DəmirBank" ASC-nin bank lisenziyasının ləğvi səbəbindən Sahibkarlığın İnkişafı Fondu tərəfindən verilən kredit də daxil olmaqla Kredit Portfelinin sağlam banka köçürülməsi ilə əlaqədar problemlər yarandı ki, bu da şirkətimizin gələcək layihələrinin icrasını şübhə altına qoyurdu. Lakin Prezidentin müvafiq fərmanı bu problemimizin həllinə kömək oldu. Belə ki, möhtərəm Prezidenti İlham Əliyevin 31 iyul 2018-ci il tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondu"nun (SİF) vəsaitindən istifadə Qaydası"nın 3.6.bəndinə əsasən, fondun vəsaiti hesabına maliyyələşdirilən kredit portfelini ləğvetməyə məruz qalmış bankdan digər müvəkkil banka keçirilməsi üçün məhkəməyə müraciət etmək səlahiyyəti Sahibkarlığın İnkişafı Fonduna verildi. Bu səlahiyyətindən istifadə edərək Sahibkarlığın İnkişafı Fondu məhkəməyə müraciət etdi, məhkəmə Azərbaycan Respublikası Prezidentinin bu fərmanını əsas götürərək kredit portfelimizin tam həcmdə "Dəmirbank" ASC-dən "Paşabank" ASC-yə köçürülməsinə dair ədalətli qərar qəbul etdi.

Sözügedən fərman həmçinin hər zaman özəl sektorun, sahibkarlığın inkişafına xüsusi diqqət və qayğıyla yanaşan möhtərəm Prezident İlham Əliyevin bu sahəyə verdiyi önəmin göstəricisi idi. Bu fərmanla həmçinin Sahibkarlığın İnkişafı Fondunun vəsaitinin də qorunması təmin olundu. Cənab Prezident çıxışlarında dəfələrlə bəyan edib ki, sahibkarlığın inkişafı Azərbaycanın ümumi inkişafının əsas şərtidir və hər bir dövlət qurumu sahibkarlığın inkişafına dəstək göstərməlidir. İnanırıq ki, "Dəmirbank" ASC-nin ləğvedicisi Əmanətlərin Sığortalanması Fondu da dövlət başçısının fərmanını əsas tutaraq çıxarılan bu məhkəmə qərarının icrasını təmin edəcək, kredit portfelimizi tam həcmdə "Paşabank" ASC-yə köçürəcək. Bununla da şirkətimiz tərəfindən həyata keçiriləcək yeni istehsal layihələrinin icrasına maneələr aradan qalxmış olacaq, regionlarda yeni iş yerləri açılacaq və son nəticədə Sahibkarlığın İnkişafı Fondunun vəsaitləri səmərəli şəkildə yenidən sahibkarlığın inkişafına yönələcəkdir.

**- Bu məhkəmə qərarının icrası nə qədər vaxt aparacaq?**

- Möhtərəm Prezident İlham Əliyevin sahibkarlığın inkişafı siyasəti bütün dövlət qurumları tərəfindən davamlı olaraq dəstəklənir. Hesab edirik ki, sözügedən qurum da dövlət başçısının iqtisadi sahədə siyasətinə öz töhfəsini verəcək.

**- Bəs 2019-cu ildən gözləntiləriniz necədir? Ümumiyyətlə, şirkətin yaxın perspektiv üçün nə kimi planları var?**

- Yuxarıda qeyd etdiyim kimi, müəyyən problemlər layihələrimizin icrasını ləngidirdi. İnanırıq ki, bu problemimiz də uğurlu həllini tapacaq və biz də iqtisadiyyatımızın inkişafına töhfə verməkdə davam edəcəyik. "Dəmirbank" ASC-nin ləğvedicisi Əmanətlərin Sığortalanması Fondu tərəfindən kredit portfeli tam həcmdə "Paşabank" ASC-yə köçürüldükdən sonra biz ilk növbədə Mineral Yun Zavodunun tikintisini başa çatdıracağıq. "Mətanət A" şirkəti olaraq bundan başqa, 2019-cu ildə Zənginləşdirilmiş Kvars Qum zavodu layihəsini və digər yeni layihələrin icrasını başa çatdırmaqla istehsal sahələrini genişləndirmək və yeni iş yerləri yaratmaq əsas hədəflərimizdəndir.

**- Sabah ölkəmizdə Sahibkarlar Günü qeyd olunacaq. Bu əlamətdar günlə bağlı fikirlərinizi bilmək maraqlı olardı.**

- Möhtərəm Prezident İlham Əliyev tərəfindən Sahibkarlar Gününün təsis edilməsi dövlət başçısının sahibkarlığa, özəl sektora verdiyi yüksək dəstəyin ifadəsidir. Mən bütün sahibkarları Sahibkarlar Günü münasibətilə ürəkdən təbrik edir, onlara ölkəmizin inkişafı istiqamətində işlərində uğurlar arzulayıram.

Mətanət A®

Sahibkarlığın İnkişafı Fondunun krediti hesabına maliyyələşən və "Dəmirbank"ASC-nin lisenziyasının ləğvinə görə tikintisi yubanan "Mətanət A" şirkətinin yeni istehsal layihələri, nəhayət ki, yaxın zamanda tamamlanacaq və regionlarımızda yeni iş yerləri açılacaq.

# Azərbaycanın növbəti ildə də ən islahatçı ölkə statusunu qoruyacağı gözlənilir

Aprelin 23-də İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində "Doing Business 2020"yə dair islahat icmalı təqdim edilib.

AZƏRTAC xəbər verir ki, bununla bağlı keçirilən mətbuat konfransında İİTKM-in icraçı direktoru Vüsal Qasımlı son bir ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda uğurlu islahatlar aparıldığını deyib. Bildirib ki, biznes mühitinin əlverişliliyinin daha da artırılması üçün vergi və gömrük islahatları davam etdirilir, onlayn vahid ixrac ərizəsi, "Yaşıl dəhliz", elektron məhkəmə, elektron satınalma, tikintidə bir pəncərə, biznesə başlama, elektrik enerjisinə çıxış, kreditlərə əlçatanlıq, müqavilələrin icrası və əmlakın qeydiyyatı sahələrində mühüm islahatlar aparılıb. Bu səbəbdən Azərbaycanın növbəti ildə də ən islahatçı ölkə statusunu qoruyacağı gözlənilir.

İcmalda 11 indikator üzrə mövcud olan və daha sonra dəyişdirilən, sadələşdirilən prosedurlar haqqında da ətraflı məlumat təqdim olunub.

V.Qasımlı hər bir indikator üzrə əlavə məlumat verib. Qeyd edib ki, "Doing Business"in biznesə başlama indikatoru üzrə hüquqi şəxslərin cəmi bir prosedurla onlayn dövlət qeydiyyatına alınması üçün əlverişli şərait yaradılıb. Hüquqi şəxsin qeydiyyatı prosedurlarının sayı 3-dən 1-ə, müddəti 3,5 gündən 0,5 günə endirilib, ilkin qeydiyyatla bağlı 90 manat təşkil edən xərclər ləğv edilərək prosedurun tam ödənişsiz olması müəyyən edilib. Yeni qeydiyyat sisteminə əsasən, qeydiyyat sənədləri yalnız vergiödəyicinin elektron kabinetinə onlayn qaydada göndərilir və bu sənədlərin kağız daşıyıcılarda götürülməsinə zərurət olmur. Yeni xidmətdən yararlanmaq istəyən istifadəçilər "ASAN İmza" olmadan elektron qeydiyyat sistemində FİN kodla identifikasiyadan keçirlər. Aparılan islahatlar nəticəsində artıq dövlət qeydiyyatının aparılmasının (ƏDV qeydiyyatı və bank hesabının açılması, eyni zamanda, işçilərin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində (ƏƏSMN) qeydiyyatı da daxil olmaqla) bir prosedurla tamamlanması mümkündür.

Diqqətə çatdırılıb ki, tikinti üçün icazələrin alınması indikatoru üzrə tikintiyə icazə ilə bağlı bütün texniki şərtlər və rəylər sahibkarın iştirakı olmadan elektron qaydada əldə edilir. Tikinti obyektinin istismarına icazə müddəti 20 gündən 10 günə endirilib. Tikintiyə və tikinti obyektinin istismarına icazə elektron müqavilə əsasında tam ödənişsiz aparılır. Tikinti və istismar üçün icazələrin alınması "bir pəncərə" prinsipi əsasında elektron şəkildə həyata keçirilir.

Elektrik təchizatı şəbəkələrinə qoşulma üzrə aparılan islahatlar nəticəsində sahibkarların şəbəkəyə qoşulma ilə əlaqədar elektron müraciət imkanı yaradılıb. Elektrik təchizatı şəbəkələrinə qoşulma üzrə təkmilləşdirilmiş qaydalara əsasən sahibkarlarla təmas minimuma endirilib, şəbəkəyə qoşulma ilə əlaqədar sahibkarın iştirakı bir dəfə müraciət zamanı, bir dəfə də yekunda tikinti obyektinə elektrik enerjisinin verilməsi zamanı tələb olunur.

"Elektron xəritə" vasitəsilə sahibkarın obyektinin, güc mərkəzlərinin yeri və həmin mərkəzlərdə sərbəst güc səviyyəsi əraziyə baxış olmadan avtomatik onlayn qaydada müəyyən olunur.

Əmlakın qeydiyyatı üzrə aparılan islahatlar nəticəsində əmlakın qeydiyyatı ilə bağlı bütün xidmətlər Əmlak Xidmətləri Məkanında aparılır. Bir prosedurla tərəflərin müraciəti əsasında əmlakın qeydiyyatı prosesi həyata keçirilir. Aparılan islahatlar nəticəsində Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətindən kağız çıxarış əldə olunması prosesi ləğv olunub, qeydiyyat tamamlandıqdan sonra qısa müddət ərzində elektron çıxarış onlayn göndərilir. Daşınmaz əmlakın qeydiyyatı və kadastrı ilə bağlı problemlər üzrə müraciət və müvafiq olaraq onların həlli üçün hər biri ilə əlaqədar ayrılıqda, xüsusi və müstəqil mexanizmlər fəaliyyət göstərir.

Vergilərin ödənilməsi indikatoru üzrə görülən işlər nəticəsində işəgötürən tərəfindən ödənilən sosial sığorta haqqının dərəcəsi 22 faizdən 15 faizə endirilib. ƏDV-nin qaytarılması ilə bağlı vergi orqanlarına təqdim olunmalı ərizə elektronlaşdırılıb. Vergiödəyiciləri üçün əvəzləşdirilən vergi məbləğinin hesabat dövrü ərzində hesablanan vergi məbləğindən artıq olan hissəsi vergiödəyicinin vergi və gömrük orqanlarına elektron formada ərizəni verdiyi vaxtdan 4 aydan gec olmayaraq qaytarılacaq. Həmçinin ƏDV-nin 3 ay ərzində geri qaytarılması müddəti aradan qaldırılıb.

V.Qasımlı "Doing Business" hesabatının sərhəddə ticarət indikatoru üzrə əhəmiyyətli işlərin görüldüyünü vurğulayaraq əlavə edib ki, beynəlxalq ticarətin asan və sürətli şəkildə həyata keçirilməsi, şəffaflığın təmin olunması, vaxt və vəsaitə qənaət edilməsi məqsədilə gömrük sistemində aparılan islahatlar nəticəsində nəqliyyat vasitələrinin sərhədkeçmə vaxtı, o cümlədən tələb olunan sənədlərin sayı minimuma endirilib. Xarici ticarət iştirakçılarının "Yaşıl dəhliz" buraxılış sistemindən daimi istifadə hüququnu əldə etməsi, həmin hüququn dayandırılması, ləğvi və bərpası qaydaları təsdiq edilib. Bu da "Yaşıl dəhliz" buraxılış sisteminin istifadəçilərinə idxal zamanı ölkəyə gətirilən malların şəxslərin anbarlarına birbaşa aparılması, gömrük bəyannaməsi təqdim olunduğu təqdirdə gömrük orqanlarının razılığı əsasında malların daşındığı nəqliyyat vasitələrindən müstəqil qaydada gömrük eyniləşdirmə vasitələrinin (plombların və sair) çıxarılması və malların boşaldılması ilə bağlı üstünlüklər verir. İxrac zamanı isə bu üstünlük gömrük orqanına getmədən ixrac olunan elektron gömrük bəyannaməsini təqdim etməklə, malları bəyan etdiyi gömrük sərhəd buraxılış məntəqəsinə birbaşa göndərməsi və gömrük orqanlarının tanıdığı eyniləşdirmə vasitələrinin (plomblar, möhürlər, ştamplar və sair) müstəqil tətbiq edilməsi ilə bağlıdır. Təsadüfi deyil ki, "Yaşıl dəhliz" buraxılış sisteminin tətbiq olunması və sahibkarlara yanaşmada risk əsaslı yoxlamaların tətbiq olunması idxal zamanı ölkəmizin mövqeyinə öz təsirini göstərib.

Kreditlərin alınması indikatoru üzrə daşınar əmlakın yüklülüyü reyestri barədə müvafiq normativ hüquqi aktlara dəyişiklik edilib. Kiçik investorların maraqlarının qorunması və müflisləşmənin həlli indikatorları üzrə qanunvericiliyə dəyişikliklər edilib, vaxt normaları müəyyən edilib. İpoteka predmetinin açıq bazarda (hərracda) satılması ilə yanaşı, elektron qaydada keçirilən hərracda da satılması qanunvericilikdə təsbit edilib. Təkrar hərracın keçirilməsi üzrə gözlənilməli müddət həddi 45 gündən 20 günə azaldılmaqla, bu sahədə operativlik və səmərəlilik artırılıb.

Qeyd edək ki, Dünya Bankının hazırladığı "Doing Business" hesabatında Azərbaycan dünya miqyasında 25-ci yerə layiq görülüb və ən islahatçı ölkə elan olunub.

# Özbək qonaqlar İsmayıllıda dostluq səfərindədirlər



Özbəkistan Respublikası Fərqanə Vilayətinin Riştan şəhərinin nümayəndə heyəti İsmayıllıya gəlib. Riştan və İsmayıllının qardaşlaşması istiqamətində gerçəkləşən bu səfər Azərbaycan nümayəndə heyətinin bir müddət bundan əvvəl Riştanda olmasının qarşılığında həyata keçirilib.

İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Mirdaməd Sadıqov RİH-in konfrans zalında özbək qonaqlarla görüşüb. 11 nəfərdən ibarət olan nümayəndə heyətini səmimi salamlayan Mirdaməd Sadıqov Azərbaycanın, o cümlədən İsmayıllının sürətli inkişafından, milli-mənəvi dəyərlərin qorunması və zənginləşdirilməsindən, rayonun beynəlxalq münasibətlərinin genişləndirilməsindən danışıb.

Qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi müddətdə ölkənin dinamik və hərtərəfli yüksəlişi təmin olunub. Regional sosial-iqtisadi inkişaf siyasəti uğurla həyata keçirilib. Ölkələr arasında ikitərəfli əlaqələrin formalaşması inkişafın hərəkətverici qüvvəsinə çevrilib. Bu gün isə biz dini, soykökü bir olan özbək qardaşlarımızla görüşürük. Qarşılıqlı əməkdaşlıq haqqında saziş imzalayacağıq. Bu da hər iki tərəfin iqtisadi, sosial və mənəvi inkişafı üçün yeni stimul olacaqdır.

Nümayəndə heyətinin rəhbəri, Fərqanə Mətbuat Mərkəzinin rəhbəri Abdusalom Siddikov səmimi qəbul üçün təşəkkür edib. O, Azərbaycanda, İsmayıllıda olmalarından fərəh duyduqlarını bildirib. İsmayıllı ilə Riştanın qardaşlaşmasının hər iki tərəfə böyük səmərə verəcəyini əminliklə diqqətə çatdırıb. Ümidvar olduğunu bildirib ki, bu qardaşlıq, dostluq əlaqələrinə əsaslanan işgüzar səfərlər müntəzəm xarakter alacaq, İsmayıllının və Riştanın inkişafında əhəmiyyətli rol oynayacaqdır.

Görüş zamanı İsmayıllı ilə Riştan şəhəri arasında qarşılıqlı əməkdaşlıq haqqında saziş imzalanıb.

Hər iki şəhərin etnoqrafiyasını, xalq sənətkarlığını əks etdirən hədiyyələr qarşılıqlı olaraq təqdim olunub. Nümayəndə heyətinin tərkibində olan xanımlara Basqal kəlağayısı hədiyyə edilib.

Sonra Heydər Əliyev Mərkəzində bir qrup ziyalı ilə qonaqların görüşü olub, Özbəkistan-Azərbaycan Dostluq Cəmiyyətinin nümayəndələri ilə "dəyirmi masa" arxasında söhbət keçirilib. Bundan sonra qonaqlar Heydər Əliyev prospektində "Qala divarları" qarşısındakı dostluq bağında ağac əkiblər.

Özbək qonaqlar bir neçə gün İsmayıllıda qalacaq, onun sosial-iqtisadi inkişafı, coğrafiyası, tarixi və bu günü, milli-etnik tərkibi, xalq sənətkarlığı, şəhərsalma mədəniyyəti, aqrar istehsal səviyyəsi ilə tanış olacaqlar.

***Əli SƏLİMOV,***
***"Azərbaycan"***

# Diplomatik korpusun nümayəndələrinə Azərbaycanda aparılan aqrar islahatlar barədə məlumat verilib

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının dəstəyi, Xarici İşlər və Kənd Təsərrüfatı nazirliklərinin birgə təşkilatçılığı ilə xarici ölkələrin Azərbaycanda akkreditə olunmuş səfirliklərinin rəhbərləri ilə "Azərbaycan Respublikasında aqrar islahatlar" mövzusunda görüş keçirilib.

Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, tədbir Xarici İşlər Nazirliyinin Dövlət Protokolu İdarəsinin rəisi səfir Pərvin Mirzəzadənin moderatorluğu ilə keçirilib.

Kənd təsərrüfatı naziri İnam Kərimov çıxış edərək görüşün keçirilməsində məqsədin Azərbaycanın aqrar sektorunda aparılan islahatlar barədə məlumat verməklə yanaşı, ikitərəfli əməkdaşlıq perspektivlərini müzakirə etmək olduğunu bildirib. Nazir kənd təsərrüfatının Azərbaycan iqtisadiyyatının ən sürətli inkişaf edən sahələrindən biri olduğunu deyib: "Kənd Təsərrüfatı Nazirliyi öz fəaliyyətində üç əsas prinsipə əsaslanır. Bunlar fermerlərlə yaxınlıq, şəffaf və səmərəli idarəetmə, innovasiyaların tətbiqi prinsipləridir. Nazirlik təməl prinsiplərinə söykənərək funksional fəaliyyətini müasir tələblərə uyğun təşkil etmək üçün beş strateji istiqaməti əsas götürüb. Bu istiqamətləri aqrar təhlil, aqrar həllər, aqrar bilik və bacarıqlar, aqrar dəstək və aqrar ticarət kimi təsnif edə bilərik. Aqrar sahədə təhlil, qiymətləndirmə və proqnozlaşdırmanın aparılması, proqram və layihələrin hazırlanması, sahənin strateji planlaşdırılması və innovativ inkişafı vəzifələrinin icrasını təmin etmək məqsədilə nazirliyin tabeliyində publik hüquqi şəxs statuslu Aqrar Tədqiqatlar Mərkəzi yaradılıb. Eyni zamanda, Elektron Kənd Təsərrüfatı İnformasiya Sisteminin tətbiqinə başlamışıq. Bu sistem bütün aqrar xidmətlərin elektron hökumət üzərindən həyata keçirilməsinə imkan verəcək və fermerlərə əlavə üstünlüklər yaradacaq. Son üç ay ərzində artıq 50 mindən çox fermer yeni sistemdə qeydiyyatdan keçib".

Görüşdə Aqrar Elm və İnnovasiya Mərkəzi, Aqrar Xidmətlər Agentliyi, Aqrar Kredit və İnkişaf Agentliyi, Dövlət Aqrar İnkişaf mərkəzləri, AMAL və AFAQ layihələri, "Aqrar Tədarük və Təchizat" ASC və Dövlət Aqrar Ticarət Şirkətinin funksiyaları barədə diplomatlara geniş məlumat verilib.

Daha sonra Aqrar Kredit və İnkişaf Agentliyinin sədri Mirzə Əliyev və Dövlət Aqrar Ticarət Şirkətinin rəhbəri Leyla Məmmədova təmsil etdikləri qurumların əsas fəaliyyət istiqamətləri barədə təqdimatlarla çıxış ediblər.

Görüşdə diplomatik korpus nümayəndələrinin aqrar islahatların müxtəlif istiqamətlərinə dair sualları cavablandırılıb.

# Azərbaycan Sahibkarlar Konfederasiyası Türkiyədəki Azərbaycanlı İş Adamları Birliyinin yığıncağında iştirak etmişdir

Aprelin 19-da Türkiyə Respublikasının İstanbul şəhərində Azərbaycan Respublikasının Türkiyədəki Səfirliyinin təşkilati dəstəyi ilə Türkiyədəki Azərbaycanlı İş Adamları Birliyinin yeni heyətdə təsis yığıncağı keçirilmişdir.




Tədbirin əsas məqsədi Türkiyə Respublikasındakı azərbaycanlı iş adamlarının vahid platformada birləşdirilməsindən və onların digər üçüncü dövlətlər ilə əməkdaşlığa cəlb edilməsindən ibarət olmuşdur. Tədbirdə Azərbaycan Sahibkarlar Konfederasiyasının Baş katibinin müavini Fuad Hümbətov iştirak etmişdir.

Azərbaycanın Türkiyədəki səfiri Xəzər İbrahim ilə görüş zamanı Fuad Hümbətov konfederasiyanın ən iri biznesə dəstək təşkilatı kimi həm ölkə daxilində, həm də xaricdəki fəaliyyəti, sosial tərəfdaş kimi ölkənin sosial-iqtisadi sferasında həyata keçirilən islahatlardakı iştirakı, əməkdaşlıq etdiyi beynəlxalq və donor təşkilatlar, xarici ölkələrdəki nümayəndəliklərin fəaliyyəti barədə geniş məlumat vermişdir. Səfir Xəzər İbrahim Azərbaycan Sahibkarlar Konfederasiyasının kollektivini və bütün sahibkarları konfederasiyanın yaranmasının 20 illiyi münasibəti ilə təbrik etmiş, Türkiyədəki Azərbaycanlı İş Adamları Birliyinin təsis edilməsinin təqdirəlayiq olduğunu vurğulamışdır.

Tədbir zamanı Azərbaycan Sahibkarlar Konfederasiyasının təmsilçisi Türkiyədəki Azərbaycanlı İş Adamları Birliyinin İdarə Heyətinin sədri Mehdi Nağıyev, Birliyin İdarə Heyətinin sədr müavini Mikayıl Yusifov, Xarici İqtisadi Əlaqələr Qurumunun (DEİK) Azərbaycan-Türkiyə İşgüzar Şurasının rəhbəri Səlcuq Akat, Azərbaycan Dövlət Neft Şirkətinin Türkiyə nümayəndəliyinin baş direktoru Tural Məmmədov, "Paşa Bank" Açıq Səhmdar Cəmiyyətinin maliyyə institutları ilə iş bölməsinin meneceri Mustafa Duman, Azərbaycan Respublikasının İstanbul Konsulluğunun nümayəndəsi, işgüzar dairələrin nümayəndələri və digər rəsmi şəxslər ilə qarşılıqlı faydalı görüşlər keçirmişdir.

Türkiyədəki Azərbaycanlı İş Adamları Birliyinin İdarə Heyətinin sədri ilə keçirilmiş görüş zamanı üçüncü ölkələrdə, habelə beynəlxalq layihələrdə birgə fəaliyyət məqsədilə Azərbaycan Sahibkarlar Konfederasiyası və Türkiyədəki Azərbaycanlı İş Adamları Birliyi arasında əməkdaşlıq barədə anlaşma memorandumunun imzalanması haqqında razılıq əldə edilmişdir.

Digər iş adamları və rəsmi şəxslərlə görüş zamanı konfederasiya adından birgə fəaliyyət perspektivləri müzakirə olunmuşdur.

*"Azərbaycan"*

# Ötən yay qəza baş verən "Azərbaycan" İstilik Elektrik Stansiyası tam yenidən qurulur

Ötən ilin iyul ayında baş verən qəza nəticəsində ölkəmizdə enerji sisteminin çökməsinə səbəb olan Mingəçevir şəhərində yerləşən "Azərbaycan" İstilik Elektrik Stansiyası istismar müddətini başa vurduğu üçün Prezident İlham Əliyevin göstərişi ilə ən müasir səviyyədə yenidən qurularaq bərpa edilir.



Cənubi Qafqazın ən böyük istilik elektrik stansiyası olan və respublikada elektrik enerjisinə olan tələbatın 43 faizini təmin edən 8 bloklu "Azərbaycan" İstilik Elektrik Stansiyasında bütün parametrlər üzrə tikinti, yenidənqurma və bərpa işləri aparılır.

Bu günə qədər "Reabilitasiya Proqramı" çərçivəsində "Azərenerji" ASC tərəfindən stansiyanın 6 saylı enerji blokunda kompleks yenidənqurma işləri aparılıb və nəticədə 60 meqavatlıq yük məhdudiyyəti aradan qaldırılıb. Həmçinin 500 kilovoltluq Açıq Paylayıcı Qurğunun II dövrəsinin 7 saylı enerji bloku və 1 saylı əlaqə avtotransformatorunun bütün elementləri yeni avadanlıqlarla əvəzlənərək istismara verilib. Nəticədə 7 saylı enerji blokunun gücü 250 meqavatdan maksimum həddə - 310 meqavata çatdırılıb. Bununla yanaşı, hidrogen istehsal edən elektroliz, oksigen qurğularında da təmir işləri aparılıb.

Hazırda sex və laboratoriyaların yerləşəcəyi ofis binası təmir olunur, kimya sexi yenidən qurulur, çənlərin bünövrəsi, yeni çənlərin quraşdırılması və borularda izolyasiya işləri aparılır. Paralel olaraq hidrogen, azot-oksigen və hava kompressorları sexinin yerləşəcəyi binada, stansiyanın girişində mövcud yanğınsöndürmə nasosxanasında təmir işləri görülür, həmçinin yağ təsərrüfatının köçürülməsi istiqamətində müvafiq tədbirlər həyata keçirilir. "Azərbaycan" İstilik Elektrik Stansiyasında yeni inzibati bina və idarəetmə mərkəzi tikilir. Stansiya ərazisinin perimetr boyu elektron hasarla əhatəyə alınması və kamera sisteminin qurulması işləri reallaşdırılır. 1 saylı tüstü borusunun fasadının boyanması və bərpası prosesi gedir, analoji işlər 2 saylı tüstü borusunda tam yekunlaşıb. Soyutma su nasos stansiyalarının çıxış su kanallarının əsaslı təmir işləri davam etdirilir. Reagent təsərrüfatı üzrə tikinti və montaj işləri, o cümlədən 9 saylı qazanın sökülməsi işi həyata keçirilir. Maşın zalının yağışdan qoruma işləri yekunlaşmaq üzrədir.

Ölkənin ən böyük 500 kilovoltluq Açıq Paylayıcı Qurğularından biri məhz "Azərbaycan" İstilik Elektrik Stansiyasında yerləşir ki, onun da 2-ci dövrəsində aparılan işlər artıq başa çatıb. 500 kilovoltluq Açıq Paylayıcı Qurğudan 330 kilovoltuq Açıq Paylayıcı Qurğunun İdarəetmə mərkəzinə kabel xətləri üçün kanal yolunun qazıntı işləri aparılır. Həmçinin enerji bloklarının qazan bölməsinin yağışdan və küləkdən mühafizəsi, o cümlədən yanğından mühafizə binası əsaslı təmir olunur.

Ümumilikdə "Reabilitasiya Proqramı" çərçivəsində "Azərbaycan" İstilik Elektrik Stansiyasında 3 il ərzində turbinlərin, generatorların, rele mühafizə sisteminin, sexlərin, yarımstansiyaların, 500 və 330 kilovoltluq hava xətlərinin, əks-qəza avtomatikasının tamamilə yenidən qurulub bərpa edilməsi nəzərdə tutulub. Bundan başqa, Yuxarı Qarabağ kanalının üzərindən əhali üçün yeni körpü və yol salınması, yeraltı yanğınsöndürmə su boru sistemlərinin bərpa edilməsi istiqamətində işlər görülür. Ümumilikdə görüləcək genişmiqyaslı işlərin nəticəsində stansiyanın gücü 380 meqavat artırılaraq 2000 meqavata catacaq, ən əsası isə "Azərbycan" İstilik Elektrik Stansiyasında dayanıqlılıq və etibarlılıq təmin ediləcək.

*"Azərbaycan"*

# 14 ölkə, 450 idmançı...

## Yelkənçilərimiz Azərbaycanı beynəlxalq yarışda layiqincə təmsil ediblər






**Son 16 ildə digər sahələrdə olduğu kimi, Azərbaycanın idman tarixində də şanlı səhifələr yazılıb. Ötən dövr ərzində ölkəmizdə idmanın və olimpiya hərəkatının inkişafında böyük canlanma müşahidə olunub. Gələcəyə hesablanmış idman siyasəti ölkəmizdə sağlam nəsil və böyük idmançı ordusu formalaşdırıb.**








Bunlara paralel olaraq ölkəmiz mötəbər beynəlxalq idman yarışlarının keçirildiyi məkana, dünyanın idman mərkəzlərindən birinə çevrilib. "Bakı-2015" ilk Avropa Oyunlarında yarışların standartını müəyyənləşdirən, "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarında isə yüksək təşkilatçılıqla nümunə göstərən Azərbaycan bu günlərdə daha bir mötəbər tədbirə evsahibliyi edəcək. Paytaxtımız "Formula-1" Azərbaycan Qran-prisini sayca 4-cü dəfə keçirməklə yarışların tarixinə növbəti dəfə öz imzasını həkk etdirəcək.

Dünyanın idman mərkəzlərindən biri sayılan Azərbaycanın idman potensialı ildən-ilə daha da güclənir. Hər il beynəlxalq yarışlarda yüzlərlə medal qazanılır. İdmançılarımız müxtəlif beynəlxalq turnirlərdə yüksək nəticələr əldə edirlər.

Sevindirici haldır ki, qatıldıqları beynəlxalq turnirlərdə uğur qazanan idmançılar sırasında yelkənçilərimiz də var. Yelkənli idman növü ölkəmizdə uğurla inkişaf etməkdədir. Bu idman növünə olan münasibət istər ölkə daxilində, istərsə də dünyada əsaslı şəkildə dəyişməkdədir. Federasiya tərəfindən qabaqcıl Avropa şirkətlərindən yelkənli idman qayıqlarının gətirilməsi, eyni zamanda, qısa müddət ərzində beynəlxalq səviyyəli məşqçilərin Azərbaycana dəvət edilməsi təmin edilib.

Bu günlərdə yelkənçilərimizdən daha bir xoş xəbər Sloveniyadan gəldi. Aprelin 18-22-də Yelkənli İdman Federasiyasının yığma komandası "Optimist" və "Laser" sinifləri üzrə "32-th Izola Spring Cup" və "Easter Regata" yarışlarında iştirak ediblər. Azərbaycanı yarışlarda "Optimist" sinfi üzrə yelkənçilərimiz Ayla Babayeva, Fidan Ağazadə, Kristina Kərimova, Murad Hacı-zadə, Murad İsmayılov və Səxavət Əzimov, "Laser" sinfi üzrə Murad Allahverdi, İsmayıl Kərimov, heyətin rəhbəri Burcu Algon Giorgianni, "Optimist" sinfi üzrə baş məşqçi Seyhun Yıldız, "Laser" sinfi üzrə məşqçi Tuğçə Subaşı və köməkçi məşqçi Anton Vilyayev təmsil ediblər.

Yelkənçilərimiz yarışlara başlamazdan əvvəl aprelin 14-18-də beynəlxalq səviyyəli məşqçi Draqan Qasiçin rəhbərliyi ilə təlim-məşq toplanışlarına qatılıblar. Azərbaycan Yelkənli İdman Federasiyasının yığma komandasının Avropa çempionatına hazırlıq məqsədilə qatıldığı yarışlarda 14 ölkədən 450 idmançı iştirak edib.

"Optimist" sinfi üzrə 2 yarış və "Laser 4.7" sinfi üzrə 3 yarış keçirilib. Öz bacarıq və peşəkarlıqları ilə seçilən yelkənçilərimiz Murad Hacı-Zadə və Ayla Babayeva 450 idmançı ilə "Qızıl Qrup"da yarışmaq imkanı əldə ediblər. Yelkənli İdman Federasiyasının gənc idmançılarının peşəkar yelkənçilərlə bir qrupda yer alması beynəlxalq səviyyəli məşqçilərin xüsusi diqqət və rəğbətilə qarşılanıb.

"Laser" sinfi üzrə yarışan yelkənçilərimiz Murad Allahverdi və İsmayıl Kərimov 3 yarışda iştirak edərək yüksək bacarıq nümayiş etdiriblər.

Azərbaycan Yelkənli İdman Federasiyasında hazırda "Optimist" və "Laser" sinifləri üzrə iki komanda formalaşıb. Bu siniflər üzrə ayrı-ayrılıqda, xaricdən dəvət edilən 2 baş məşqçi fəaliyyət göstərir.

Xatırladaq ki, yelkənçilərimiz bundan əvvəlki yarışlarda da uğurla çıxış edərək ölkəmizin adını daim uca tutublar. Bu ilin əvvəllərində Azərbaycan Yelkənli İdman Federasiyasının yığma komandası Omanda "Optimist" və "Laser" sinifləri üzrə təşkil olunan "Mussanah Race Week 2019" turnirində mükafatçılar sırasına düşməklə növbəti dəfə onlara göstərilən etimadı doğruldublar.

Ötən il Qazaxıstanın Aktau şəhərində keçirilən "Beynəlxalq Xəzər Kuboku" yarışında kişi idmançılarımız birinci və üçüncü yerlərdə, qızlarımız isə fəxri kürsünün hər üç pilləsində qərarlaşaraq medallara sahib olublar.

Yelkənli İdman Federasiyasının gənc yelkənçisi Kristina Kərimova isə Sloveniyada keçirilən "Easter Regatta" adlı beynəlxalq yarışda 139 idmançı arasında 4-cü yerdə qərarlaşaraq yüksək nəticə göstərmişdi.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***




# Bakı "Formula-1" üçün unikal yerdir
















*Əvvəli 1-ci səh.*

"Biz üç mərhələdə iki dəfə qələbə qazanacağımızı təsəvvür belə etmirdik. Buna görə bütün əməkdaşlara fantastik işlərindən ötrü təşəkkür edirəm. Şəxsən mən bir az kədərliyəm, çünki yürüşü pouldan başladım və elə ilk metrlərdə onu uduzdum. Start-finiş ağ xəttində gecikmə baş verdi və mən liderliyi Luisə təhvil verməli oldum. Bu cür xırdalıqlar böyük rol oynaya bilir və təəssüf ki, onlar qalibi müəyyən edən amil olur. Müsbət məqamlara gəldikdə isə biz trasda Bəhreyndə olduğundan daha inamlı idik. Komanda yaxşı formadadır və maksimum nəticə əldə etməyə çalışacaq. Şanxay trası bir çox cəhətdən unikaldır, Bakıda isə bizi fərqli yürüş gözləyir. Yaxın günlərdə bizi nələrin gözlədiyi məlum olacaq".

### "Bakıya daha güclü qayıtmaq istəyirik"

"Ferrari" komandasının rəhbəri Mattia Binotto isə bildirib ki, "Mercedes" bolidləri uik-endin başlanğıcından sürətli olub, onlar təsnifatda bizi qabaqlayıb və bu keyfiyyəti bir daha təsdiq ediblər:

"Bu, yürüşdən-yürüşə vəziyyətin dəyişə biləcəyini göstərir. Bəhreyndə biz daha sürətli çıxış etdik, bir həftədən sonra isə hər şey əksinə oldu. Güman edirəm ki, bütün çempionat boyu şərait dəyişəcək. Strateji qərarların qəbulu zamanı biz komanda üçün maksimal nəticələrə nail olmağa çalışırdıq. Biz Maranellodakı bazaya qayıdacağıq, orada telemetriyanı öyrənərək növbəti yürüşə daha yaxşı hazırlaşmaq istəyirik. Zəif cəhətlərimizi aşkar etmək və Bakıya daha güclü qayıtmaq üçün maşını da modernləşdirməyə davam edəcəyik. Orada bizi tamamilə fərqli tras gözləyir, biz uik-endə müsbət əhvali-ruhiyyə ilə yanaşmalı və mümkün olan hər şeyi etməliyik".

### "Çox sevincliyəm"

"Racing Point"in pilotu Serxio Peres isə "Formula-1"in Qran-prisindən sonra 4 xal qazandığına görə sevincli olduğunu diqqətə çatdırıb: "Start inanılmaz dərəcədə yaxşı alındı. Mən hücuma keçmək fürsətini gördüm və hər şey istədiyim kimi alındı. Bizim tempimiz yaxşı idi, mən sürəti saxlayır və şinlərin vəziyyətinə nəzarət edirdim. Yürüşü asan adlandırmaq olmazdı, çünki ikinci kəsiyin çox hissəsində Kimi Raykkonenin təzyiqi altındaydım. Bu səbəbdən də şinlərin vəziyyətini izləmək və tempi saxlamaq çox çətin idi. Məndən irəlidə olan Daniel Rikkardo da elə bu vəziyyətdə idi. Güman edirəm ki, o, şinlərin vəziyyətini izləyirdi. Çünki hər dəfə mən ona yaxınlaşdıqda o, sürəti artıraraq qabağa gedirdi. Fürsətdən istifadə edərək xal qazanmağımız çox mühüm idi. Biz Bakıda daha yaxşı çıxış etməliyik".

### "Azərbaycanda hər şeyi yenidən başlamaq istəyirəm"

"McLaren"in idman direktoru Jil de Ferran isə Çin Qran-prisindən sonra idmanda güzəşt olmadığını diqqətə çatdırıb. Vurğulayıb ki, birinci dövrədə baş verən insident komandanın yürüşünü pozub: "Yekun ürəkaçan olmadı. Buna baxmayaraq, uik-end bizə müsbət nəticələr çıxarmağa imkan verdi. Birincisi, xal qazana bilmiş rəqiblərin fonunda bizim yürüş tempimiz heç də pis deyildi. İkincisi, özünəməxsus unikal Çin trası bolidin davranışı barədə daha çox məlumat toplamağa şərait yaratdı. Buna görə də Bakıda daha uğurla çıxış edəcəyimizə ümid bəsləyirik".

"Alfa Romeo"nun pilotu Antonio Covinatsi isə onları qarşıda daha çətin Bakı sınağının gözlədiyini bildirib: "Planımız baş tutmadı, indi mən artıq Azərbaycanda hər şeyi yenidən başlamaq fürsətini gözləyirəm. Bakı trası ilə məni xoş xatirələr bağlayır. "Formula-1" sükanı arxasında Bakı yollarında çıxış etmək çox gözəl olardı. Görək, necə alınacaq".

***Elçin CƏFƏROV,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***

# Ermənistan insan hüquqlarından bəhs edən hər hansı sənəd yaymağa utanmalıdır

## Azərbaycan XİN Ermənistanın ölkəmizin işğal edilmiş ərazilərində yaradılmış qondarma rejimin hesabatını BMT-nin İnsan Hüquqları Şurasına təqdim etməsinə münasibət bildirib

Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Leyla Abdullayeva Ermənistanın öz illik hesabatı ilə yanaşı, ölkəmizin işğal edilmiş ərazilərində yaradılmış qondarma rejimin də hesabatını BMT-nin İnsan Hüquqları Şurasına təqdim etməsi və bu sənədlərin BMT rəsmi səhifəsində yayılması ilə bağlı mətbuatda gedən məlumatlara münasibət bildirib.

AZƏRTAC xəbər verir ki, bununla bağlı sualı cavablandıran Leyla Abdullayeva deyib: "Öncə qeyd etmək istərdim ki, burada BMT-nin İnsan Hüquqları Şurasına təqdim edilmiş illik hesabatdan söhbət gedə bilməz. Mətbuatda məlumatı təqdim edərkən onun dəqiqliyinin yoxlanılması vacibdir. Ermənistan KİV-inin bir çox hallarda müəyyən mövzuları öz maraqlarına cavab verəcək şəkildə təqdim etdiyinin dəfələrlə şahidi oluruq. Birinci hal deyil ki, Ermənistan tərəfi öz məktublarına Azərbaycanın işğal edilmiş ərazilərində yaradılmış qanunsuz separatçı rejimin kağızlarını əlavə edirlər. Ermənistan tərəfinin BMT, eləcə də ATƏT çərçivəsində üzvlük hüquqlarından sui-istifadə edərək qanunsuz rejimin kağızlarını öz məktublarının əlavəsi kimi yaymaq təcrübəsinə cavab olaraq, təşkilatlar yayılan bu sənədlərin hər hansı bir şəkildə təşkilatın mövqeyini əks etdirmədiyini bildirirlər. Sənədə diqqətlə baxsanız burada sənədin əlavəsinin yayılmasının BMT Katibliyinin onun mahiyyəti üzrə hər hansı mövqe bildirməsi demək olmadığı aydın şəkildə yazılır. Qeyd etmək istərdim ki, ATƏT-də də eynilə bu kimi sənədlərin üzərində yayılan məlumatın ATƏT-in mövqeyini əks etdirmədiyi birmənalı şəkildə qeyd olunur. Ümumiyyətlə, Azərbaycan ərazilərini işğal edərək burada yaşayan azərbaycanlılara qarşı etnik təmizləmə həyata keçirən, o cümlədən işğal zamanı Xocalı soyqırımı kimi insanlıq əleyhinə cinayətlər törədən, yüz minlərlə etnik azərbaycanlının öz doğma evlərində yaşamaq hüququndan məhrum edən Ermənistan insan hüquqlarından bəhs edən hər hansı sənəd yaymağa utanmalıdır. Bu kimi addımlarla Ermənistan, ilk növbədə, öz əhalisini aldadır və işğal etdiyi ərazilərdə yaratdığı qondarma oyuncaq qurumun guya ki, tanınması görüntüsünü yaratmaq istəyir.

BMT-də Ermənistan nümayəndəliyi tərəfindən yayılan sənədə gəldikdə isə qeyd etmək istərdim ki, bugünədək Ermənistanın bu kimi təxribatlarına cavab olaraq ölkəmizin mövqeyini əks etdirən və yayılmış kağızların heç bir qüvvəyə malik olmadığını bildirən etiraz məktubları BMT Baş Assambleyasının və Təhlükəsizlik Şurasının rəsmi sənədləri kimi dərc olunaraq yayılıb. Konkret qeyd etdiyiniz hal ilə bağlı ölkəmizin Cenevrədəki BMT Bölməsi və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi tərəfindən BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının İnsan Hüquqları Müqavilələri Bölməsinin rəhbəri ilə görüş keçirilib və Ermənistanın Cenevrədəki daimi nümayəndəliyi tərəfindən göndərilmiş sənədə əlavə olunmuş kağızların heç bir hüquqi əsasının olmadığı və belə cəhdlərin qəbuledilməz olduğu barədə etiraz bildirilib".

# BDU-da "Uydurma erməni soyqırımı: reallıqlar və faktlar" mövzusunda tədbir keçirilib

Bakı Dövlət Universitetində (BDU) "Uydurma erməni soyqırımı: reallıqlar və faktlar" mövzusunda tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbiri giriş sözü ilə açan BDU-nun rektoru Elçin Babayev uydurma soyqırımı iddiasının heç bir əsasa malik olmadığını, ermənilərin tarixi hadisələri saxtalaşdıraraq bundan daim türk dünyasına qarşı təzyiq vasitəsi kimi istifadə etdiklərini bildirib. O qeyd edib ki, erməni diasporu qondarma erməni soyqırımı məsələsində aldıqları dəstək nəticəsində hər dəfə daha da azğınlaşır və prosesi daha böyük miqyasda həyata keçirməyə çalışır. Lakin faktlar və tarixi mənbələr bu iddiaların cəfəngiyyatdan başqa bir şey olmadığını göstərir. Son illərdə Azərbaycan dövlətinin seçdiyi diplomatik hücum taktikasının müsbət nəticələrindən, ermənilərin mövqeyinin gündən-günə zəifləməsindən danışan rektor bütün bu nailiyyətlərin kökündə Prezident İlham Əliyevin uğurlu xarici siyasətinin dayandığını qeyd edib. Dövlət başçısının bu siyasətinin, eyni zamanda, sevincli və kədərli günümüzdə bizimlə olan dost və qardaş Türkiyə ilə bağlı olduğunu bildirən rektor dəfələrlə arxivlərin açılması çağırışının edilməsinə baxmayaraq, ermənilərin bu məsələdən yayındıqlarını əslində soyqırımı faktının olmamasına sübut kimi dəyərləndirib.

Tədbirdə Bakı Dövlət Universitetinin dosenti Atamoğlan Məmmədli "24 aprel - uydurma erməni soyqırımının ifşası" mövzusunda məruzə edib. O, qondarma erməni soyqırımının Osmanlı Türkiyəsində yaşayan ermənilərin sistemli şəkildə məhv edildiyini irəli sürən əsassız iddia olduğunu bildirib. Qərb dövlətlərinin Osmanlını aradan qaldırmaq üçün hazırladıqları hərbi-təcavüzkarlıq planlarından danışan Atamoğlan Məmmədli Qafqazda Eçmiədzin kilsəsinin fəal iştirakı ilə erməni terrorçu ünsürlərinin təlimat və silahlarla təchiz edilərək Şərqi Anadoluya göndərilməsindən, Osmanlı dövlətində müxtəlif millətlərə və dinlərə münasibətdən bəhs edib. Böyük dövlətlər tərəfindən Osmanlının daxili işlərinə qarışmaq planları haqqında məlumat verən Atamoğlan Məmmədli bu istiqamətdə osmanlı vətəndaşları olan ermənilərdən və Rusiyadan gəlmə erməni terrorçularından istifadə olunduğunu vurğulayıb. O, "Hınçaq" və "Daşnaksütyun" terror təşkilatlarının pozuculuq fəaliyyətləri barədə də danışıb.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, siyasi elmlər doktoru, "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin sədr müavini Elçin Əhmədov isə ermənilərin guya soyqırımına məruz qalmaları barəsində əsassız iddiaları və onların mahiyyəti barədə fikirlərini bölüşüb. O deyib: "Tarixi sənədlər təsdiq edir ki, 1915-ci ildə Türkiyə ərazisində ermənilərə qarşı heç bir soyqırımı olmayıb. Türkiyənin müharibəyə cəlb olunduğu həmin dövrdə ermənilər çoxsaylı silahlı dəstələr yaradaraq arxa cəbhədə üsyan qaldırıb, türk ordusuna qarşı hücumlar edib, ayrı-ayrı şəhər və qəsəbələrdə kütləvi qətllər törədib, əhali ilə qeyri-insani davranıblar. Təbii ki, türk ordusu da dinc əhalini müdafiə etmək, onları erməni vəhşiliklərindən qorumaq üçün lazımi tədbirlər görüb. Ermənilərin bu və ya digər ərazilərə köçürülməsi zamanı da heç bir soyqırımı olmayıb". Professor Elçin Əhmədov bildirib ki, heç bir fakta istinad etmədən, o dövrün arxiv materiallarını araşdırmadan bir qrup siyasətçinin ötən əsrin əvvəlində baş verən hadisələri qiymətləndirməsi tamamilə yanlışdır. Bu, həm də müasir dünyada, xüsusən Qərbdə hökm sürən ikili standartların nəticəsidir.

# İsveçrə portalı ermənilərin törətdiyi qırğınlardan yazır

İsveçrənin "www.zeitung.ch" portalında "Əmin-aman dünya üçün ümidlər" sərlövhəli yazı yerləşdirilib.

AZƏRTAC xəbər verir ki, 24 aprel - qondarma "erməni soyqırımı" qurbanlarının anım günü ərəfəsində yayılan yazıda əslində soyqırımının kimlər tərəfindən törədildiyi faktların dili ilə təqdim edilir.




1918-ci ildə erməni millətçilərinin "Böyük Ermənistan" yaratmaq xülyası ilə Bakıda və Azərbaycanın digər regionlarında dinc əhaliyə divan tutması barədə məlumat verilir. Məqalədə inqilabi ideyalar pərdəsi altında Bakı Sovetinin sədri Stepan Şaumyanın sərəncamında olan altı min əsgərin "Daşnaksütyun" partiyasının minlərlə üzvü ilə birlikdə qırğınlar törətməsindən bəhs olunur. Məqalədə, həmçinin 1918-ci il hadisələrini öz gözləri ilə görən müxtəlif şəxslərin xatirələrindən iqtibaslar gətirilir, rəsmi sənədlər əsasında Azərbaycanın müxtəlif mahallarında ermənilər tərəfindən məhv edilən kəndlərin sayı göstərilir.

Qeyd edilir ki, azərbaycanlılara qarşı etnik təmizləmə həyata keçirən və "Böyük Ermənistan" ideyasını gerçəkləşdirməyə çalışan mütəşəkkil erməni dəstələri öz havadarlarının köməyi ilə minlərlə azərbaycanlını qətlə yetirib. 1918-ci ilin təkcə mart-aprel aylarında Bakıda, Şamaxıda, Qubada, Muğanda və Lənkəranda 50 mindən çox insan öldürülüb. Buna görə də 31 mart Azərbaycan parlamentinin qərarı ilə Azərbaycanlıların Soyqırımı Günü elan edilib.

Yekunda qeyd edilir ki, bütün bu baş verənlər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması üçün bütün formaları nəzərdən keçirməyə və sülh yolu ilə həllin tapılması üçün yeni impulslar axtarmağa əsas verir. Ermənistan ordusunun işğal etdiyi əraziləri tərk edəcəyi təqdirdə vətənindən qovulmuş və məcburi köçkünə çevrilmiş azərbaycanlılar əsrlərboyu olduğu kimi yenidən ermənilərlə dinc birgəyaşayışa hazır olacaqlar.

# Bir əsrdən çox faşizmin girovluğunda

## Və ya "əzabkeş" erməni xalqı kimin təcavüzünə məruz qalıb

Zaman bəzən bulandığı kimi, durulmaq, həqiqətləri aydınlaşdırıb üzə çıxarmaq gücünə də qadirdir. Bu baxımdan tarixə xalqının adını əzabkeş və zavallı millət kimi həkk etməyə əlləşən erməni millətçilərinin nimdaş siyasi libasının üzü və astarı arasındakı fərqləri bir daha nəzərdən keçirmək məcburiyyətindəyik. Artıq dəbdən düşən, müxtəlif siyasi pinələrlə yamanan bu libasın zahiri görünüşünə hamımız kifayət qədər yaxşı bələdik. Erməni millətçiləri onilliklərdir türklər tərəfindən soyqırımına məruz qalmış zavallı və məzlum xalq obrazını usanmadan oynamağa cəhd edirlər.

Bu ilin əvvəlində Fransanın Prezidenti Emmanuel Makron Erməni Təşkilatlarının Koordinasiya Şurasının ziyafətində ölkəsində "erməni soyqırımı"nın qeyd olunacağını bildirmiş və bəyan etmişdir ki, ermənilərin genosidi bizim yaddaşımızın bir hissəsini təşkil etdiyi üçün onu hörmətlə anacağıq. Əslində Makron "yaddaşımızın bir hissəsi" ifadəsi əvəzinə "günahımızın bir hissəsi" desəydi, məntiqə daha uyğun olardı.

Dünya erməni lobbisi bu məsələni bütün dövlətlərin parlamentlərinin müzakirələrinə çıxarmağa cəhdlər edir, bu istiqamətdə cidd-cəhdlə çalışmaqdan yorulmur. Amma məntiqi baxımdan adamı heyrətləndirən odur ki, nə üçün erməni lobbisi də, onu dəstəkləyən dövlətlər də bu "soyqırımını" tanıyanda qanuni yolu seçmirlər? Bu yolun nədən ibarət olduğunu rusiyalı politoloq Andrey Yepifantsev belə izah edir: "Beynəlxalq hüququn tələblərinə əsasən, milli zəmində törədilən cinayətin soyqırımı olub-olmaması barədə yalnız Haaqadakı beynəlxalq məhkəmə qərar çıxarmaq səlahiyyətlərinə malikdir. Nə Ermənistan dövləti, nə də erməni diasporu bu məhkəməyə bir dəfə də olsun müraciət etməmişdir. Niyə? Ona görə ki, onlar bu genosidi hüquqi və tarixi faktlar və terminlərlə sübut edə bilməyəcəklər. Onu da bilmək lazımdır ki, bütün beynəlxalq məhkəmələr - İnsan Hüquqları üzrə Avropa Məhkəməsi, Fransanın Ədliyyə Məhkəməsi və s. erməni diasporunun bu məsələni qaldırmaq istəklərini rədd ediblər. Son zamanlar keçirilən üç belə məhkəməni isə erməni tərəfi uduzub".

Problemin qanuni həllinə məhəl qoymadan ayrı-ayrı ölkələrin parlamentlərinin "erməni soyqırımı"nı tanıması və Türkiyəni əsassız ittiham etməsi sadəcə erməni millətçilərinə dəstək verməkdən daha çox bu ölkəyə siyasi təzyiq göstərmək, beynəlxalq aləmdə onu nüfuzdan salmağa çalışan qüvvələrin əks-hücumudur.

İliyinədək faşizm ideyaları ilə zəhərlənən erməni millətçiləri İrəvanda və gücləri, imkanları çatan istənilən ölkədə uydurma "erməni soyqırımı"nın növbəti ildönümünü yenə də təntənəli hüzn mərasiminə çevirməyə cəhd ediblər. Dünya ictimaiyyətinin məşhur simalarını, tarixçiləri, tədqiqatçıları, bir sözlə, tərəflərinə çəkdikləri, aldatdıqları və erməni diasporunun puluna satın aldıqları yüzlərlə məşhura söz verəcəklər. Deyilənlər və çəkilən görüntülər yenidən tirajlanacaq, kitablara, verilişlərə və filmlərə çevriləcək.

Sadə bir sual vermək istərdik: əgər yalan ayaq tutub yerimirsə, erməni siyasi təbliğat maşını hansı qüdrətə malikdir ki, bu yalanlara qoltuq ağaclarına söykənən əlillər kimi dirənib bütün dünyanı yüz ildən artıq olmayan soyqırımına inandırmağa çalışır, dinləyənləri gildir-gildir ağlada bilir?! Özü də elə-belə yox, zülüm-zülüm elə ağladırlar ki, hamı "doğrudan da" "zavallı" erməni xalqının uydurma yalanlarına az qalır inansın.

Qucaq-qucaq romanlar yazılır, tarixi araşdırmalar uydurulur, saxta süjetli bədii və sənədli filmlər çəkilir. Dərc olunan publisistik cəfəngiyatın, keçirilən canlı efirlərin, debatların isə sayı-hesabı yoxdur. Bu məqsədlərə xərclənən pulların qədəri yüz milyonlarla ölçülür. Adını, imzasını icarəyə verən tapılan kimi erməni millətçiləri onun yerinə də yazacaqlar, kitabını nəşr edəcəklər, elmi ad verəcəklər, qonorarını ödəyib tirajlayacaqlar. Erməni xalqının "zavallı və əzabkeş brendi"nin formalaşmasında böyük güclər daha fəal iştirak edir, dəstək verirlər. Bir az dərinə gedəndə aydın başa düşüləni odur ki, "zavallı, əzabkeş" brendi erməni xalqına zərrəcə lazım deyil. Əksinə, erməni xalqını faşizmin quluna, köləsinə çevirənlərə daha çox lazımdır.

Əslində erməni xalqı ona görə əzabkeş deyil ki, "soyqırımı"na məruz qalıb. Ona görə əzabkeş və məzlum xalqdır ki, erməni millətçilərinin və erməni faşistlərinin əsarətində olduğunu anlamaq iqtidarında deyil. Bu xalqı xaricdə təmsil edən diaspor üzvləri uzun illər terrorizmlə məşğul olub, bütün dünyada terroru dəstəkləyiblər. Bütün supergüclərin xüsusi xidmət orqanları ilə əməkdaşlığa gediblər. Məqsədləri erməni xalqına azadlıq gətirmək yox, ayrı-ayrı dövlətlərin maraqlarına xidmət etmək və Qafqazda Türkiyəyə qənim kəsilən istənilən dövlətlə əməkdaşlığa getmək olub.

Artıq erməni cəmiyyətində gec də olsa baş verən müəyyən canlanmalardan aydın olur ki, ölkədəki siyasi ideologiyanın və aramsız olaraq uydurulan yalanların onları uçurumlara sürüklədiyini dərk edirlər. Məsələn, elə rusiyalı politoloq, Ermənistan reallıqlarını bütün siyasi istiqamətlərdə araşdıran mütəxəssis Oleq Kuznetsov dəfələrlə bəyan edib ki, Ermənistanda nasizm dövlət səviyyəsində qələbə çalmışdır. Maraqlır ki, keçmiş prezident Sarkisyanla Paşinyan arasında siyasi mübarizə qızışanda rəqiblərdən biri o birini Rusiyanın agenti olmaqda ittiham edirdi. Qarşı tərəf də borclu qalmırdı və cavabında rəqiblərinin Qərbə işlədiklərini bəyan edirdi. Kənardan bu mübarizəni müşahidə edənə elə gəlirdi ki, rəqiblər ölkənin mənafeyini deyil, sanki əməkdaşlıq etdikləri supergüclərin maraqlarını qorumağa çalışırlar.

Rusiya siyasi mühitində Qafqaza fərqli, yeni baxış bucağından nəzər salan politoloqlar bu ölkədə erməni milli ideologiyasının sexakronizm - Qaregin Njdenin işləyib hazırladığı nəzəriyyə olduğunu başa düşürlər. "Biz dövlət quruculuğunda Hitlerdən öyrənməliyik" deyən Njde son illər erməni siyasi elitasının bütünə çevrilmişdir. Ona İrəvanda ucaldılan abidə, nəzəriyyəsinin təbliği və öyrənilməsi bizə belə qənaətə gəlməyə əsas verir ki, qonşu dövlət uzun müddət faşist ideologiyasının təsiri altında qala bilər. Avropanın aparıcı dövlətlərinin bu tendensiyaya məhəl qoymaması, Türkiyəyə qarşı ittihamlar sərgiləməsi bütün dünyadakı demokratik proseslər üçün təhlükə doğurur.

Erməni xalqı mahiyyət etibarilə uydurma soyqırımının yox, yüz ilə yaxın onlara hakim kəsilən, yüz minlərlə sadə ermənini türkə qarşı nifrətin zirvəsində kükrədən, əsarətdə saxlayan faşist ideologiyasının qurbanıdır. Elə bu da "əzabkeş erməni brendi"nin astarı, iç üzüdür.

Politoloq Fuad Axundov belə hesab edir ki, sexakronizm ideyası Alman Nasional Sosialist Fəhlə Partiyasının manifestinin surətidir və çoxlu ümumi cəhətlərə malikdir. Alman faşistləri yəhudilərə, erməni nasistləri isə türklərə qarşı eyni dərəcədə amansızlıq nümayiş etdiriblər. Hitler böyük şəhərləri yer üzündən silə bilməsə də, ermənilər İrəvan qalasını məhv ediblər. Almanlar monoetnik dövlət yarada bilməsələr də, nasist Ermənistanı Qafqazda bunu bacarıb və hətta almanlardan fərqli olaraq, bütün yaşayış məskənlərinin adını da dəyişib. Faşist ideologiyası erməni siyasi partiyalarının iliyinə elə hopub ki, keçmiş baş nazir Semyon faşizm ideyasını Mussolininin ermənilərdən oğurladığını deyib. Hitlerin əsabələri almanlarla yəhudilərin, erməni nasistləri də ermənilərin azərbaycanlılarla birgə yaşamasını qeyri-mümkün sayırdı.

Yekunda aydın olan odur ki, erməni xalqı türklər tərəfindən soyqırımına məruz qalmayıb. Bu xalqın məruz qaldığı əsl genosid onların yüz ildən artıq erməni nasistlərinin əsarətinə düşməsidir. Əgər dünya Qarabağ probleminin həllinin marağındadırsa, öncə Ermənistanda faşizmin mövcudluğunu etiraf etməli, onun dayaqlarını məhv etməlidir.

Bir məsələyə də diqqət yetirməliyik. Erməni millətçilərinə görə, kim Türkiyə ilə düşməndirsə ermənilərin dostudur, yaxud əksinə. Bu üzdən Rusiya ilə Türkiyə yaxınlaşandan sonra erməni millətçiləri Qərbə üz çevirib.

Ermənistanı nasizmdən xilas etmək mümkün olacaqmı? Paşinyan erməni milli qəhrəmanlarının adını sadalayarkən Njdenin adını çəkmədi. Xocalı faciəsinin ildönümündə 150 erməni Xocalıda törədilən soyqırımına görə üzr istədi. Bunlar yenilikdir, lakin dönüş deyil.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Qondarma "erməni soyqırımı"

## və ya saxta göz yaşı

Qondarma "erməni soyqırımı", qırğınlar və ya elə onların təbirincə desək, "böyük cinayət" Birinci Dünya müharibəsi ərəfəsində Türkiyənin Anadolu vilayətində yaşayan ermənilərin guya məhv edildiyini irəli sürən iddiadır. Hətta dünyanın bəzi ölkələri onu soyqırımı kimi qəbul edib. Bu qərarlar tarixə əsaslanmadan, bəzi siyasi faktorların, xüsusilə də ikili standartların təsiri ilə qəbul olunur.

"Soyqırımı" ifadəsi 1965-ci ildən gündəmə gəlib. Kilsənin irəli sürdüyü iddialar Amerika və Avropada erməni lobbisinin dəstəyilə böyük bir kampaniyaya çevrilib. Ermənilər ilk "soyqırımı" qərarının qəbuluna Uruqvayda nail olublar. 1982-ci il aprelin 29-da Kiprin yunan icması analoji qərar qəbul edib. Təəssüf doğuranı odur ki, bu sırada müsəlman ölkəsi olan Livan da var, belə ki, oradan gəlmiş muzdlu saqqallılar daşnaklarla birlikdə Qarabağda, xüsusən də Xocalıda törədilən qətliam və soyqırımıda iştirak ediblər.

Ermənilərin türkləri soyqırımına məruz qoyması faktları aşkarlandıqca isə bəzi dövlətlərdə vaxtilə qəbul edilmiş "erməni soyqırımı" qərarları ləğv edilməyə başlanıb. Bu sırada ilk addım atan isə Ukrayna olub. Xarkov vilayətinin İzyum Şəhər Şurası 2009-cu ildə qondarma "erməni soyqırımı"nın tanınması haqqında qəbul etdiyi qərarı bir il sonra ləğv edib.

### Qanlı cinayətlərin sübutları...

Azərbaycan və Türk dünyasının tarixi ərazilərinə iddiasını heç vaxt gizlətməyən erməni daşnak ideoloqları saxta soyqırımı adı ilə yüz ildən çoxdur ki, bəşəriyyətə meydan oxuyurlar. Təəccüb və təəssüf doğuranı odur ki, özlərini dünyanın söz sahibləri hesab edənlər də "erməni soyqırımı"nın saxtalığını bilə-bilə bu "oyun"dan istifadə etməyə çalışırlar. Amma dünya bilməlidir ki, ermənilər daim türklərə qarşı amansız olmuş, soyqırımı cinayəti törətmişlər. Elə götürək Azərbaycanda törətdikləri qanlı hadisələri.

Azərbaycanlıları özlərinə düşmən hesab edən ermənilər daim yerli əhaliyə qarşı amansız olmuşlar. Onların qanlı cinayətlərinin sübutları son illər daha çox üzə çıxmaqdadır. Çünki zaman-zaman gizli saxlanan arxiv materialları ilə yanaşı, torpaq altında qalan izlər də az deyil.

Belə dəlil-sübutlardan biri də Qubada üzə çıxarılan kütləvi qırğın qəbiristanlığı idi ki, bu gün Soyqrımı Memorial Kompleksi olaraq ziyarət ünvanına çevrilib və dünyada tanınır. Kompleksin ərazisindəki məzarlıq 2007-ci il aprelin 1-də torpaq işləri görülərkən aşkar edilib. Həmin ilin iyulundan Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları tərəfindən kütləvi məzarlıqda başlanılan geniş tədqiqat işləri 2008-ci ildə yekunlaşıb. Məlum olanı budur ki, 1918-ci ildə ermənilər yerli dinc əhaliyə amansızcasına divan tutaraq, törətdiyi soyqırımı qurbanlarının cəsədlərinin kütləvi şəkildə çay kənarında üstünü örtərək gizlədiblər.

30 dekabr 2009-cu il tarixində Prezident İlham Əliyev erməni millətçilərinin Azərbaycana qarşı ərazi iddialarını və təcavüz siyasətini, qanlı cinayətlərini dünya ictimaiyyətinə çatdırmaq, gələcək nəsillərin milli yaddaşını qorumaq və soyqırımı qurbanlarının xatirəsini əbədiləşdirmək məqsədilə Quba şəhərində Soyqırımı Memorial Kompleksinin yaradılması haqqında sərəncam imzalayıb.

### Qudyalçayın sağ sahilində...

2009-cu ildə Azərbaycan Prezidentinin sərəncamından sonra Nazirlər Kabineti kütləvi qətl qurbanlarının xatirəsinin əbədiləşdirilməsinə dair tədbirlər planı hazırladı. Aşkar olunmuş məzarlığın yerləşdiyi ərazidə monumental xatirə kompleksinin ucaldılmasına və abadlıq işlərinin başlanmasına start verildi.

Məzarlığın 514 kvadratmetrlik ümumi sahəsinin 494 kvadratmetrində araşdırmalar aparıldı, 20 kvadratmetr sahə isə beynəlxalq tədqiqatçılar üçün saxlanıldı.

Qudyalçayın sağ sahilində tapılan iki quyuda üst-üstə qalaqlanan insan sümükləri aşkar edildi. Quyular bir-birindən 2 metr aralı olub. Cəsədlərin əksəriyyəti uşaq və qadınlara aiddir. Daha dəhşətlisi odur ki, skeletlər bütöv deyil, bu da onu göstərir ki, onlar vəhşicəsinə öldürüldükdən sonra şaqqalanaraq quyulara atılıblar. Qurbanların sayı kəllə sümükləri ilə müəyyən olunub. Sümüklərin tərkibindəki nəmliyin miqdarı ölüm tarixinin ötən əsrin ikinci onilliyinə aid olduğunu üzə çıxarıb. Burada yalnız azərbaycanlılar deyil, ləzgilər, yəhudilər, tatlar və digər millətlərin 400-dən artıq nümayəndəsinin qətlə yetirilərək basdırıldığı üzə çıxarılıb.

2013-cü il sentyabrın 18-də Heydər Əliyev Fondunun dəstəyi ilə açılan Quba Soyqırımı Memorial Kompleksi on minlərlə insanın ziyarət yerinə çevrilib. Bu gün respublikamızda keçirilən elə bir tədbir yoxdur ki, onun iştirakçıları kompleksi, tarixi sənəd və faktlar əsasında yaradılan zəngin muzeyi ziyarət etməmiş olsun.

### Soyqırımı qurbanlarının xatirəsinə matəm sükutu...

Bura gələn qonaqların diqqətini insanların başına gətirilən qətliama yönəltmək üçün lazımi tədbirlər görülüb. Kompleks ermənilərin cinayətkar əməllərinin dünya ictimaiyyətinə çatdırılmasında, həmçinin Azərbaycan xalqının gələcək nəsillərinin milli yaddaşının qorunmasında mühüm rol oynayır.

Kompleksi ziyarət edənlər təqdim olunan faktlardan öyrənir ki, Azərbaycan tarixinə XX əsrin ən faciəli soyqırımlarından biri kimi daxil olmuş qanlı faciədə bolşevik-erməni silahlı dəstələri Bakı, Quba, Şamaxı, Göyçay, Cavad, Salyan, Qarabağ, Zəngəzur, Naxçıvan, Lənkəran, Gəncə və digər bölgələrdə kütləvi qətliamlar törədib, mindən artıq kənd yandırılıb və dağıdılıb. 1918-ci ilin aprel-may aylarında yalnız Quba qəzasında 167 kənd tamamilə məhv edilib, şəhər talanlara və yanğınlara məruz qalıb, qəzanın müsəlman və qismən də yəhudi əhalisi kütləvi şəkildə qətlə yetirilib.

Abidə-kompleks üç hissədən: sivriuclu bıçaqları xatırladan iki konstruksiya - giriş və çıxışdan, mərkəzində qara xatirə daşı yerləşən əsas zaldan ibarətdir.

Yeri gəlmişkən, abidə-muzeyin ekspozisiyasında 1918-ci il mart-iyul aylarında Bakı quberniyasının 5 qəzasında - Bakı, Şamaxı, Quba, Cavad və Göyçayda müsəlman əhalinin soyqırımı tarixi öz əksini tapıb. 19 bölmədən ibarət muzey ekspozisiyası Azərbaycan, rus və ingilis dillərində təqdim olunur. Ekspozisiya 1918-ci il hadisələri ərəfəsində dinc Quba həyatını əks etdirən fotoşəkillərlə başlayır. Burada qədim Quba həyatını, dinc, yanaşı yaşayan azərbaycanlı, ləzgi, yəhudi və digər xalqların nümayəndələrini, müxtəlif sosial təbəqələrə aid insanları əks etdirən şəkillər nümayiş etdirilir.

Ekspozisiya arxiv sənədləri ilə çox zəngindir. Burada 1918-ci ilin qanlı hadisələrindən sonra cinayəti araşdırmaq üçün Azərbaycan Xalq Cümhuriyyətinin Fövqəladə Təhqiqat Komissiyasının yaradılması haqqında qərarı və komissiyanın sənədləri, eləcə də 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin ərazisini əks etdirən xüsusi məzmunlu xəritə, ümummilli lider Heydər Əliyevin soyqırımı haqqında sərəncamı təqdim olunur.

Göstərilir ki, müxtəlif qəzalarda baş vermiş soyqırımları zamanı kütləvi şəkildə xüsusi qəddarlıqla öldürülmüş azərbaycanlıların əksəriyyəti yandırılıb, dənizə, quyulara atılıb və bu səbəbdən onları dəfn etmək mümkün olmayıb. Zalın mərkəzində belə qurbanların xatirəsinə qara mərmər daş ucaldılıb. Muzeydə ayrı-ayrı qəzaların tarixi faciəsi müxtəlif bölmələrdə zəngin foto, arxiv sənədləri, statistik məlumat və diaqramlarla verilir. Bütün informasiya üç dildə, hər bölmənin qarşısında quraşdırılan elektron məlumat bazasında öz əksini tapıb.

Heydər Əliyev Fondu tərəfindən 1918-ci ildə Azərbaycan qəzalarında törədilmiş soyqırımını əks etdirən 16 adda, üç dildə buklet, 4 adda, üç dildə kitab da nəşr edilib.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

İstər XX əsrin əvvəllərində, istərsə də sonlarında Azərbaycan dövlət müstəqilliyini bərpa edən zaman qaçqınlar problemi əsas məsələ kimi qarşıya çıxmışdır. Hər iki dövrdə də bu problemin yaranmasının səbəbi Ermənistanın azərbaycanlı əhaliyə qarşı həyata keçirdiyi etnik təmizləmə və işğalçılıq siyasəti olmuşdur. Tarixi şəraitin verdiyi fürsətdən istifadə edən sovet Ermənistanının 1988-ci ildə Dağlıq Qarabağ Muxtar Vilayətini ilhaq etmək siyasəti əvvəlcə orada yaşayan azərbaycanlıların tarixi torpaqlarından deportasiyası, sonrakı mərhələdə isə Dağlıq Qarabağın və ətraf rayonların işğalı ilə nəticələndi. XX yüzilliyin tarixinə ən faciəli münaqişələrdən biri kimi daxil olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində bir milyondan artıq azərbaycanlı əhali qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Bu insanlar ölkə ərazisinin 62 şəhər və rayonunda, 1600-dən çox sıx məskunlaşma obyektində müvəqqəti yaşamaq məcburiyyətində qalmışlar.

# Qaçqın və məcburi köçkünlər problemi "Azərbaycan" qəzetinin səhifələrində

## Bu problem ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin həmişə diqqət mərkəzində olmuşdur

İstər dövlət müstəqilliyinə qovuşma ərəfəsində, istərsə də müstəqilliyin ilk illərində qaçqın və məcburi köçkünlər probleminin həllinə hakimiyyət orqanları tərəfindən kompleks yanaşma yox idi. 1993-cü il iyunun 15-də Heydər Əliyev yenidən hakimiyyətə qayıdan zaman ölkədə mürəkkəb şərait hökm sürürdü.

Ümummilli lider Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üçün məsələyə kompleks yanaşılması, mühüm daxili və xarici siyasət amillərinin nəzərə alınması siyasətini yürütdü. Bunun üçün öncə ölkədə ictimai-siyasi sabitliyi təmin etmək, nizami ordu yaratmaq, dağılmış iqtisadiyyatı bərpa etmək və köklü idarəçilik islahatları həyata keçirmək, xalqı azərbaycançılıq ideologiyası ətrafında birləşdirmək lazım gəlirdi. Lakin ölkənin iqtisadi, maliyyə vəziyyətinin ağır olması qaçqın və məcburi köçkünlərin sosial problemlərini həll etməyə imkan vermirdi.

Milli Məclisin orqanı "Azərbaycan" qəzeti nəşr edildiyi gündən qaçqın və məcburi köçkünlərlə bağlı rəsmi materiallar dərc etməklə yanaşı, Ermənistanın hərbi təcavüzünün nəticələri, çadır düşərgələrində, ictimai obyektlərdə sığınacaq tapan qaçqınların vəziyyəti barədə mütəmadi olaraq müəllif yazıları da dərc edir. "Azərbaycan" qəzetində bu mövzuda çıxan məqalələri dövrün salnaməsi hesab etmək olar. Qəzeti vərəqlədikcə ölkənin necə ağrılı-acılı günlər yaşadığı, hansı faciələrdən keçib bu günlərə çatdığı göz önündə sərgilənir.

* * *

Qaçqın və məcburi köçkünlərin faciəsini Heydər Əliyevin öz şəxsi faciəsi kimi qəbul etdiyini qəzetdə dərc edilən materiallardan hiss etmək olur. 1993-cü il iyulun 25-də ölkənin vətəndaş müharibəsinə sürükləndiyi, bölgələrdə separatizmin baş qaldırdığı dövrdə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən ulu öndər Ağdam şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalı nəticəsində bölgədə yaranmış vəziyyətlə əlaqədar Bərdəyə səfər etmiş, məcburi köçkünlərlə görüşmüş, onların vəziyyətinin yüngülləşdirilməsi məqsədilə operativ müşavirə keçirmişdi. Həmin müşavirə qəzetdə tam genişliyi ilə öz əksini tapmışdı. Sonda ümummilli lider demişdi: *"Xalqımız mütləq birləşməli, səfərbər olmalı, özünün vətənpərvərlik hisslərini geniş nümayiş etdirməli, torpaqlarımızı düşməndən azad etməlidir. Bu, hər bir azərbaycanlının borcudur. Mən sizi, Azərbaycan xalqını bu müqəddəs borcu yerinə yetirməyə çağırıram".*

Məhz xalqımızın Heydər Əliyevin ətrafında səfərbər olması, ölkədə sabitliyin bərqərar edilməsi sayəsində qaçqın və məcburi köçkünlərin probleminin kompleks şəkildə həllinə start verildi.

Ümummilli lider 11-12 dekabr 1993-cü ildə Ermənistanın hərbi təcavüzü nəticəsində yaranmış vəziyyətlə tanış olmaq üçün İmişli, Füzuli, Beyləqan və Şəmkir rayonlarında olmuş, yığıncaqlarda iştirak etmişdir. Ağcabədi və Gəncədə qaçqınların vəziyyətinə həsr olunmuş xüsusi müşavirələr keçirmişdi.

"Azərbaycan" qəzetini vərəqlədikcə dövrün ab-havasını, yaşantılarını, addım-addım irəliyə doğru yerişini, uğurlarını xatırlayırsan... Ümummilli liderin memarı olduğu "Neft strategiyası"nın reallaşdırılmasına başlanılması, "Əsrin müqaviləsi"nin imzalanması, Ermənistanla atəşkəs sazişinin imzalanması qaçqın və məcburi köçkünlərin sosial məişət vəziyyətinin tədricən yaxşılaşdırılmasına təkan verdi. Onların statusu, sosial müdafiəsi, iş və yaşayış yerləri ilə təmin olunması ilə bağlı müvafiq hüquqi aktlar qəbul edildi, həyat şəraitinin yaxşılaşdırılması üçün müxtəlif növlü güzəştlər tətbiq edildi.

1995-ci ildə bu problemlərlə daha da ciddi məşğul olmaq üçün Nazirlər Kabinetində xüsusi vəzifə - Baş nazirin müavini vəzifəsi təsis edildi və qaçqınların, məcburi köçkünlərin problemi ilə əlaqədar hökumət komissiyası yaradıldı.

Heydər Əliyev Azərbaycana səfərə gələn dövlət və hökumət başçıları, beynəlxalq təşkilatların rəhbərləri ilə görüşdən sonra, bir qayda olaraq, qonaqları Bakı şəhərində qaçqın və məcburi köçkünlərin müvəqqəti sığınacaq tapdıqları yerlərə baxmağa dəvət edir, bununla da Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində yaranan humanitar fəlakəti əyani şəkildə göstərirdi.

"Azərbaycan" qəzetində oxuyuruq: "1998-ci il iyun ayının 27-də Heydər Əliyevin sədrliyi ilə Respublika Sarayında qaçqın və məcburi köçkünlərin məsələlərinə həsr olunmuş ümumrespublika müşavirəsi keçirildi. Müşavirədəki nitqində ümummilli lider dedi: *"Bu gün sizə bir daha bəyan etmək istəyirəm ki, bu, Azərbaycan dövlətinin, hökumətinin və şəxsən Azərbaycanın dövlət başçısı, Prezidenti kimi mənim qarşımda duran ən əsas vəzifədir və daim - hər gün, hər saat mənim diqqət mərkəzimdədir... Mən xarici ölkələrdən gələn dövlət başçılarını, hökumət üzvlərini, elm, mədəniyyət xadimlərini çalışıram ki, qaçqınların yaşadıqları yerlərə, çadır şəhərciklərinə göndərim. Nə üçün? Bəzən onların vaxtı olmur. Ancaq mən xahiş edirəm və buna nail oluram. Ona görə ki, görsünlər. Görməyəndə təsəvvür edə bilmirlər ki, insan altı il çadırda, vaqonun içində, vaqonun altında yaşaya bilər, - bunu təsəvvür edə bilmirlər".*

Heydər Əliyevin bu humanitar fəlakətin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində gördüyü işlər sayəsində 1993-2002-ci illərdə ayrı-ayrı dövlətlər, maliyyə qurumları, beynəlxalq humanitar təşkilatlar tərəfindən qaçqın, məcburi köçkün və aztəminatlı əhaliyə müxtəlif layihələr üzrə 640 milyon ABŞ dollarından çox həcmdə humanitar yardım göstərilmişdi.

Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 17 sentyabr tarixli sərəncamı ilə "Qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli üzrə" Dövlət Proqramı təsdiq edilmişdi. Dövlət ali və orta ixtisas təhsili müəssisələrində ödənişli formada təhsil alan qaçqın və məcburi köçkün ailələrindən olan tələbələr təhsil haqqını ödəməkdən azad edilmişdilər.

Prezident Heydər Əliyevin 1999-cu il 29 dekabr tarixli fərmanı əsasında Dövlət Neft Fondu təsis olunmuşdur. Neft fondunda toplanan ilk vəsaitin 72 milyon dolları Ermənistandan qaçqın düşmüş soydaşlarımızın məskunlaşması və Biləsuvarda çox ağır vəziyyətdə olan, Füzuli, Cəbrayıl və digər rayonlardan köçüb çadırlarda yaşayanların şəraitinin yaxşılaşdırılması üçün ayrılmışdı.

"Azərbaycan" qəzetində əksini tapan bir görüşü xüsusi vurğulamaq istəyirəm. Ümummilli lider Heydər Əliyev 13 sentyabr 2002-ci ildə Goranboy rayonunun Aşağı Ağcakənd qəsəbəsində Ermənistan Respublikasından olan qaçqınlar və Xocalıdan olan məcburi köçkünlər üçün salınmış qəsəbənin açılış mərasimində iştirak etmişdi. Bu, Heydər Əliyevin qaçqınlar və məcburi köçkünlərlə son görüşü idi. Həmin görüşdə ümummilli lider demişdi: *"Mən inanıram, tam inanıram ki, bizim bölgədə hər şey ədalət naminə dəyişəcəkdir. Azərbaycan xalqının bu əzab-əziyyətinə görə onun xeyrinə dəyişəcəkdir. Siz gələcəkdə mütləq və mütləq gedib hələ öz gözəl Göyçə torpağınızı da görəcəksiniz, öz doğma dağlarınızı, bulaqlarınızı, çaylarınızı da görəcəksiniz. Ata-babalarınızın qəbirlərini də görəcəksiniz. Mən buna heç şübhə etmirəm. Mən buna inanıram və bu inamla da sizin qarşınızda nitq söyləyirəm. Ancaq indi sizə bu şəraiti yaratmaq mümkün olub, mən də bunu yaratmışam".*

Həmin görüşdə Heydər Əliyev bir arzusunu da dilə gətirmişdi: *"Avtomobillə gələndə yuxarıdan baxdım. Fikirləşdim ki, bəlkə mən də buradan bir ev götürüm, hərdənbir istirahətə gəlim. Çünki evlər xoşuma gəldi. Özü də buranın təbiəti çox gözəldir..."* Heydər Əliyev qaçqınların və məcburi köçkünlərin dərdini öz dərdi hesab edir, onların vəziyyətinin yüngülləşdiyini görəndə özünü xoşbəxt hesab edir, sevincini də onlarla bölüşmək istəyirdi. Lakin çəkdiyi yükün ağırlığına ürək tab gətirmədi. Ancaq bu problemin həlli üçün nə mümkündürsə, onu elədi!

* * *

2001-2002-ci illərdə Dövlət Neft Fondundan ayrılmış vəsait hesabına 6411 fərdi yaşayış evi, 3150 yerlik 18 məktəb, 18 uşaq bağçası, 16 tibb məntəqəsi tikilib istifadəyə verildi, Biləsuvar rayonu ərazisindəki 5 çadır düşərgəsi ləğv edildi, 1329 qaçqın və 5081 məcburi köçkün ailəsinin 32 min nəfərinin mənzil-məişət şəraiti yaxşılaşdırıldı.

Ümumiyyətlə, Heydər Əliyevin dövlət başçısı olduğu dövrdə qaçqın və məcburi köçkünlərin sosial müdafiəsi ilə bağlı 43 fərman və sərəncam imzalanmış, Milli Məclis 23 qanun, Nazirlər Kabineti isə 192 qərar və sərəncam qəbul etmişdir.

Qaçqınların və məcburi köçkünlərin problemlərinin birdəfəlik və tamamilə həlli Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasından keçir. Bu məqsədlə Heydər Əliyev Ermənistan prezidentləri ilə müxtəlif formatlarda 45 dəfə görüşmüşdür. Bu görüşlərin 18-i Levon Ter-Petrosyanla, 27-si isə Robert Koçaryanla baş tutmuşdur. Bütün bunlar "Azərbaycan" qəzetinin səhifələrində öz əksini tapmışdır.

* * *

Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş bu proqram Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilərək bu gün daha geniş miqyasda, hərtərəfli, sistemli və ardıcıl şəkildə həyata keçirilməkdədir.

2003-cü il oktyabrın 1-də prezident seçkiləri ərəfəsində Baş nazir, prezidentliyə namizəd İlham Əliyev Biləsuvar rayonunda məcburi köçkünlər üçün yeni inşa edilmiş qəsəbənin açılışında iştirak etmiş, Heydər Əliyev siyasi xəttinin davam etdiriləcəyini, qaçqınların və məcburi köçkünlərin problemlərinin daim diqqət mərkəzində olacağını bəyan etmişdi.

Prezident İlham Əliyev ilk xarici səfərində - 2003-cü il dekabrın 11-də Cenevrədə BMT-nin Qaçqınların işləri üzrə Ali Komissarlığının iqamətgahında bu qurumun rəhbəri ilə görüşmüş, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində yurdundan didərgin düşmüş bir milyondan artıq soydaşımızın ağır vəziyyəti, onların yaşayışının yüngülləşdirilməsi üçün hökumətin gördüyü tədbirlər haqqında ətraflı məlumat vermişdir.

1 iyul 2004-cü ildə "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" təsdiq edilmişdir.

2007-ci ildə məcburi köçkünlərin olduqca ağır şəraitdə yaşadıqları 12 çadır və 3 dəmir yolu üzərindəki yük vaqonlarından ibarət düşərgə, 2016-cı ildə isə fin tipli evlərdən ibarət 16 qəsəbədən sonuncusu ləğv olunub və orada müvəqqəti məskunlaşmış məcburi köçkün ailələri yeni salınmış qəsəbələrə köçürülmüşdür. Qaçqın və məcburi köçkünlər üçün indiyədək ümumilikdə 3,3 milyon kvadratmetr yaşayış sahəsi olan 100-dək müasir qəsəbə və çoxmərtəbəli binalardan ibarət yaşayış kompleksləri salınıb.

Yeni qəsəbələrdə insanların rahat yaşaması üçün bütün zəruri infrastruktur da yaradılıb: 153 məktəb, 59 mədəniyyət, 60 səhiyyə müəssisəsi, 61 uşaq bağçası, 2 olimpiya idman kompleksi tikilib. 745 kilometr yol, 985 kilometr su, 1720 kilometr elektrik, 487 kilometr qaz xətti çəkilib. İndiyədək 52 min 300 ailə və ya 265 min nəfər qaçqın və məcburi köçkünün mənzil-məişət şəraiti yaxşılaşdırılıb.

Qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həlli üçün son 24 ildə 6,6 milyard manat vəsait sərf olunmuşdur. Ondan 3,1 milyard manat dövlət büdcəsinin, 2,1 milyard manat Dövlət Neft Fondunun, 1,4 milyard manat isə beynəlxalq maliyyə qurumları və ölkəmizdə fəaliyyət göstərən beynəlxalq humanitar təşkilatların vəsaitidir.

Sahibkarlığın inkişafı məqsədilə Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu tərəfindən 24 min nəfər məcburi köçkünə 14,8 milyon manat məbləğində mikrokredit, Sahibkarlığa Kömək Milli Fondu tərəfindən isə 2074 nəfər məcburi köçkün sahibkara 44,3 milyon manat güzəştli kredit verilib və xeyli əlavə iş yerləri yaradılıb. Bu mikrokreditlərin əksəriyyəti kənd təsərrüfatı - əkinçilik, heyvandarlıq, bitkiçilik, arıçılıq ilə bağlı layihələrə yönəldilmişdir. Həyata keçirilmiş tədbirlər nəticəsində məcburi köçkünlər arasında yoxsulluq həddi son 14 ildə 75 faizdən 12 faizədək azalıb, 2017-ci ildə hər məcburi köçkünə 785 manat vəsait sərf olunub.

"Azərbaycan"dakı məqalələri oxuduqca görürsən ki, qəzetin yazarları bu gün ölkədə baş verən köklü inkişaf proseslərinin yanındadır, günümüzün salnaməsini yaratmaqla öz tarixi missiyalarını yerinə yetirirlər. Onun səhifələrində Azərbaycan həqiqətləri, ölkəmizdə hüquqi dövlət və vətəndaş cəmiyyətinin qurulması, iqtisadi islahatların həyata keçirilməsi, sağlam psixoloji mühitin, vətəndaş həmrəyliyi və milli birliyin yaradılması sahəsində aparılan məqsədyönlü işlər və ictimai-siyasi proseslər qərəzsiz işıqlandırılır.

* * *

2003-cü il oktyabrın 1-də prezident seçkiləri ərəfəsində İlham Əliyev Biləsuvar rayonunda məcburi köçkünlərlə görüşü zamanı bir arzusunu dilə gətirmişdi və o arzu artıq çin olmuşdur. Prezident demişdi: *"Bu gün buraya gələndə bir ailəyə qonaq oldum. Məni çox mehriban qarşıladılar. Mənim bir arzum var ki, - hesab edirəm, bu, hamının arzusudur, - Cəbrayıla qonaq gəlim. Cəbrayıl işğaldan azad olandan sonra sizin üçün bundan da gözəl evlər tikəcəyik. Və mən də gəlib sizin qonağınız olacağam".*

Bu gün dövlət başçısının arzusu Cocuq Mərcanlının timsalında qismən gerçəkləşib. 2016-cı ilin aprel ayında ordumuzun strateji Lələtəpə yüksəkliyini qaytarması torpaqlarımızın azad ediləcəyinə inamı daha da artırıb. Prezident İlham Əliyevin "Cəbrayıl rayonunun işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndinin bərpası haqqında" 2017-ci il 24 yanvar tarixli sərəncamına əsasən ayrılmış 4 milyon manat vəsait hesabına kənddə birinci mərhələdə 50 evin, 96 şagird yerlik məktəbin və infrastrukturun tikintisi həyata keçirildi. Əlavə ayrılmış 4,3 milyon manat vəsait hesabına isə Cocuq Mərcanlıya gedən 9 km uzunluğunda yol çəkildi. Cocuq Mərcanlı kəndində Şuşadakı Yuxarı Gövhər ağa məscidinin bənzəri olan məscid tikildi. 2017-ci il iyunun 14-də dövlət başçısı bərpa edilmiş Cocuq Mərcanlı kəndinin açılış mərasimində iştirak etdi. Prezident 2017-ci il iyunun 15-də "Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində bərpa işlərinin davam etdirilməsi ilə bağlı tədbirlər haqqında" daha bir sərəncam imzaladı. Sərəncama əsasən, ikinci mərhələdə 100 fərdi yaşayış evinin, uşaq bağçasının, klub, icma mərkəzinin, həkim və poçt məntəqələrinin, digər zəruri sosial və infrastruktur obyektlərinin tikintisi məqsədilə 9 milyon manat ayrıldı. Bu işlər qısa zaman ərzində başa çatdırıldı.

Birinci vitse-prezident təyin edildikdən sonra Mehriban xanım Əliyevanın ilk müşavirəni məcburi köçkünlərin problemlərinə həsr etməsi bu sahədə mövcud problemlərin kompleks şəkildə həllinə yeni təkan vermişdir.

Prezident İlham Əliyev indiyədək məcburi köçkünlərlə yeni salınmış qəsəbələrdə 34 dəfə görüş keçirmişdir. Ölkə başçısı tərəfindən 110 fərman və sərəncam imzalanıb, Milli Məclis 34 qanun, Nazirlər Kabineti isə 381 qərar və sərəncam qəbul edib. Dövlət başçısının uğurlu siyasəti nəticəsində Azərbaycan 2016-cı ildə BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının İcraiyyə Komitəsinin tamhüquqlu üzvü seçilib.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üçün Prezident İlham Əliyev Ermənistanın sabiq prezidentləri ilə 31 görüş keçirmişdir. Ermənistan rəhbərlərinin mövcud status-kvonu qoruyub saxlamaq limiti artıq tükənmişdir.

"Azərbaycan" qəzetində dərc edilən "Onlar doğma yurda dönəcəklərinə inanırlar", "Lələtəpədən Xankəndiyə doğru!", "Böyük Qayıdışın böyük başlanğıcı", "Aprel şapalağı", "Böyük qələbənin parolu" və s. məqalələri oxuduqda torpaqlarımızın tezliklə işğaldan azad ediləcəyinə, məcburi köçkünlərin öz doğma yurdlarına dönəcəklərinə inamımız daha da güclənir.

* * *

Azərbaycan dövlətinin başçısının yeritdiyi xarici siyasət, ölkə iqtisadiyyatının gündən-günə güclənməsi, ordumuzun hərbi potensialının qat-qat artırılması sayəsində dövlətimizin ərazi bütövlüyü bərpa ediləcəkdir. O gün uzaqda deyil.

"Azərbaycan" qəzeti də peşəkar səviyyəsi, sözünün sanbalı, operativliyi, obyektivliyinə görə lider mövqeyini daim qoruyub saxlayacaqdır.

***Nazim MUSTAFAYEV,***
***tarix üzrə fəlsəfə doktoru,***
***Dövlət mükafatı laureatı***




**Uzunömürlülər**

# Ömrün yüzüncü yazı



Zərdabın ucqar bir kəndində - Seyidlərdə yaşayır Mələk nənə. Bu kəndin bir tərəfi Kür çayı, o biri tərəfi Tuqay meşələridir. Aran yeri nə qədər isti olsa da, meşə ilə çayın qovşağı bu məkana bir sərinlik gətirir. Düz bir əsrdir ki, o bu kənddə yaşayır. Özü demişkən, bu il ömrünün yüzüncü yazını qarşılayır. Onu bu yerlərə bağlayan çox şeylər var. Bir-birinə bitişik kənd evləri adamlarda bir mehribançılıq, səmimiyyət yaradıb. Mələk nənə deyir ki, mən bu adamları görməyəndə elə bil doğmalarım üçün darıxıram, onları görməyə can atıram. Ən çətin günlərdə bir-birimizə həyan oluruq, çətin işlərimizin qulpundan yapışırıq. Belə yaşamaq sadə olsa da, son dərəcə maraqlıdır.

Mələk nənənin yeddi övladının hərəsi yurdumuzun bir diyarında yaşayır. Hamısı da təkidlə onu öz yanına aparmağa çalışır. Amma Mələk nənənin həyat yoldaşı Dünyamalı kişi ömrünün son anında vəsiyyət etmişdi ki, heç vaxt heç vədə bu yurdu boş qoymayın. Elə ki yurd boşalır, onda hər şeyin izi-sorağı itir, köhnəliyin dadı-tamı qaçır. Gərək belə şeyləri qorumaq üçün öz ata-baba ocağını tərk etməyəsən... Mələk nənə deyir ki, hər dəfə həyat yoldaşımın bu vəsiyyətini yada salanda övladlarım da mənim niyyətimlə razılaşırlar. Bilirlər ki, bu doğma yurddan ayrılmaq mənə çox çətindir. Hələ ki əlim iş tutur, həyət-bacada gəzib-dolanıram. İmkan tapanda Kür tərəfə də üz tuturam. Qonum-qonşu bilir ki, mən o çaydan ötrü çox darıxıram. O qədər daşqınlar, sel-sular olub ki... Amma bu kənd adamları hər şeyə dözüm göstərib yurdu-yuvanı tərk etməyiblər. Adamların bu sadə kənd həyatında yaşamaq həvəsi o qədər böyükdür ki... Elə ki yaz ayları gəlir, kəndin-kəsəyin nağıl gecələri başlayır. Adamlar bir-birinə həyan olur, özlərini söz-söhbətlə ovundururlar...

Mələk nənə ömründə çətin günlər çox görüb, müharibənin ağrı-acısını yaşayıb. Deyir, o illərdə o qədər məhrumiyyətlərimiz olub ki... Doğmalarım, yaxınlarım müharibəyə yollandılar. Kəndkəsək ehtiyac içərisində yaşayırdı, amma müharibəyə kömək etmək üçün heç kəs heç nəyini əsirgəmirdi. Ömrümün ahıl çağında da çətin günlər keçirməyə başladım. Qarabağ savaşı başlayandan bəri övladlarımın çoxu əlinə silah alıb könüllü müharibəyə getdi. Ortancıl oğlum Mənsur ən çətin döyüş nöqtələrində olub. Hər dəfə onun xəbəri gələndə narahatçılıq, nigarançılıq keçirirdim. Amma nə qədər üz vursaq da, geri dönmürdü. Deyirdi ki, vətən bizə güvənir, gərək axıra qədər düşmənlə mübarizə aparaq. Düşmən də ki çox hiyləgərdir, torpaqlarımızdan əl çəkmək istəmirlər. Mənim isə yaşım imkan verir deyəm ki, vallah, elə əzəldən erməninin əməlli bir yurd-yuvası olmayıb, onun-bunun torpağına göz dikiblər. Bir sözlə, gözləri özgənin ocağında olub. Halalla yaşamağı bacarmırlar. Yalnız hiylə, məkrli oyunlarla gün keçirirlər. Belə adamlarla dil tapmaq da çətindir. Mən də eşidirəm ki, dünya onları lənətləyir, haqqa çağırır, amma yollarına qayıtmırlar. Belə də qonşuluq olar?!

Mələk nənənin 22 nəvəsi, 45 nəticəsi, bir kötükcəsi var. Zarafatla soruşdum ki, bu övladlarına bir fərq qoyursanmı, hansını daha çox istəyirsən? Dedi ki, a bala, hamısı mənə əzizdir. Amma etiraf edəcəyəm ki, öz adımı bağışladığım Mələyi daha çox sevirəm. O qədər istiqanlı uşaqdır ki... Babasından yadigar qalan ağaclara elə həvəslə qulluq edir... Həyətimizdə bir vələs ağacı var. Mələk deyir ki, bu ağacın xasiyyəti də babama oxşayır. Elə ki qədərincə qulluq etmirik, həmin il bar vermir, elə bil hər şeydən imtina edir, çox kövrək ağacdır...

Mələk nənə əlini günlük edib gözlərinin üstünə qoydu, darvazaya sarı baxdı. Dedi ki, böyük oğlum Məmmədalıdı, məni tez-tez yoxlayır. Yenə də deyəcək ki, gedək bir-iki ay da bizimlə qal. Bilir ki, eyni cavabı verəcəyəm. Amma yenə də ciddiliklə təkid edir. Allah hamısını xoşbəxt etsin, mənə belə yaşamaq daha xoşdur. Elə bil bu yerlərdə olanda Dünyamalı kişinin ruhu başımın üstündə olur. Yeri gələndə kövrəlirəm, olub-keçənləri xatırlayıram, mən də belə bir ömür, yaşayıram.

Yenə də Mələk nənəyə bir sual verdim. Ən çox sevindiyin anlar nə vaxt olur? Dedi ki, a bala, bu kənd toyları var ey, uşaqlar yığışıb toyxanada məni də oynadırlar, nəvələrim başıma toplaşır. Mələyin süzməsinə heç kəs çata bilməz. Bax, onda daha çox sevinirəm. Bilirəm ki, əhatəmdə övladlarım var, məni yaşadan bir nəslin alqışını duyuram. Onda lap qocalığımı da unuduram. Elə bil hərəkətlərimdə bir çeviklik yaranır. Bax, belə günlər üçün darıxıram.

Bəzən yuxularımı qarışdırıram. Onda həyan yerim övladlarım olur. Kimə əlim çatırsa, ünüm yetirsə, onu da çağırıram ata-baba yurduna. Heç vaxt çağırışımı cavabsız qoymurlar. Elə məni gümrah saxlayan, yaşadan da budur. Gərək bu dünyada adamın əli-ünü çatan yeri olsun, həyanı olsun. Yoxsa, yaşamaq çox çətin olar...

Bu günlərdə deyəndə deyəndə ki, beş-altı ay əvvəl mənə xəbər gəldi ki, kötükcən dünyaya göz açıb. O qədər sevindim ki... Axı övladın hamısı əzizdir, dəyərlidir. Mən onlarla yaşayıram, nəfəs alıram. Həm də ki, axı, ilk kötükcəmi görürəm. Övladlarımın hamısı ilə fəxr edirəm. Sevinirəm ki, bizim ocağın tərbiyəsi onları halal böyüməyə yönəltdi. Harada olurlarsa olsunlar, xoş soraqlarını eşidəndə o qədər sevinirəm ki... Axı onların ərsəyə gəlməsində, boya-başa çatmasında az-çox mənim də payım var. Heç vaxt dilə gətirməsəm də, özləri yaxşı bilirlər ki, Mələk nənənin xeyir-duası onların başının üstündədir.

Bu yaxınlarda ömrümün yüzüncü yazı tamam olur. Bütün övladlarım bir yerə yığışsalar, böyük bir məclis qurular. Mən də onlara baxıb ürəkdən fəxr edərəm. Axı zəmanə elədir ki, yüz il yaşamaq o qədər də asan deyil... Bəzən məndən belə şeylərin sirrini də soruşurlar. Doğrusu, cavabım sadə olur. Deyirəm ki, məni gümrah saxlayan bu kənd-kəsəkdir, saf havadır, Kür çayıdır, bir də uzanıb gedən Tuqay meşələridir. Hara getsəm də, bu yerlər üçün burnumun ucu göynəyir. Çalışıram ki, doğma ocağıma tez qayıdam. Bu ağaclar var ey, əli ilə uzanıb gedən bağı göstərir, bunlara sığal çəkəndə cavanlığım yadıma düşür. Rəhmətlik Dünyamalı kişi gününün çoxunu bu ağacların böyüməsinə sərf edərdi. Deyirdi ki, heç olmasa nəvələrim, nəticələrim meyvəsindən dadarlar, bunlar da mənim yadigarlarımdır. Nə qədər gücüm çatır, Dünyamalı kişinin vəsiyyətlərinə əməl edəcəyəm. Bəlkə də elə bundan ötrü yaşayıram. Nə bilim, vallah, Allah verən ömürdür, harada bitərsə, orada da tamamlanacaq. Bircə onu bilirəm ki, heç nədə gözüm qalmayıb. Uşaqlar mənə yaxşı baxıb, qulluğumda dayanıblar. Ona görə də yüz il yaşaya bildim...

***Bəşir ŞƏRİFLİ,***
***"Azərbaycan"***

# Mir Cəlal Paşayevin “Bir gəncin manifesti” əsəri Tbilisidə gürcü oxuculara təqdim olunub



Görkəmli alim, yazıçı və pedaqoq, XX əsr Azərbaycan elminin, ədəbiyyatının, təhsilinin inkişafında misilsiz xidmətlər göstərmiş Mir Cəlal Paşayevin “Bir gəncin manifesti” əsəri gürcü dilinə tərcümə olunub. AZƏRTAC xəbər verir ki, aprelin 23-də Tbilisidəki M.F.Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyində kitabın təqdimat mərasimi keçirilib.

Azərbaycanın Gürcüstandakı səfirliyinin dəstəyi ilə keçirilən tədbirin əsas informasiya təminatçısı Azərbaycan Dövlət İnformasiya Agentliyidir (AZƏRTAC).

Tədbirdə muzeyin direktoru, Azərbaycanın əməkdar mədəniyyət işçisi Leyla Əliyeva Azərbaycan-Gürcüstan mədəni əlaqələrindən danışıb, görkəmli ədib, şair və mütəfəkkirlərin əsərlərinin hər iki xalqın dilinə tərcümə olunaraq yayılmasının münasibətlərimizin daha da inkişafına xidmət etdiyini bildirib.

Kitabın tərcümə və nəşrini həyata keçirən “Azərbaycan aləmi” Mədəniyyət Mərkəzinin sədri Şəfəq Yusifova Mir Cəlal Paşayev yaradıcılığından söz açıb. Bildirib ki, kitabı gürcü dilinə tərcümə etməkdə məqsəd yerli oxucuları ədibin yaradıcılığı ilə tanış etməkdir.

Şəfəq Yusifova kitabın Gürcüstanda maraqla qarşılanacağına və gürcü oxucular tərəfindən çox seviləcəyinə ümidvar olduğunu vurğulayıb. Qeyd edib ki, rəhbərlik etdiyi qurum Azərbaycan ilə Gürcüstan arasında mədəni, ədəbi əlaqələrin inkişafına kömək etmək niyyətindədir. Bu məqsədlə gələcəkdə Azərbaycan və gürcü ədiblərinin, elm adamlarının əsərlərinin də qarşılıqlı olaraq hər iki dilə tərcümə edilməsi nəzərdə tutulur.

Azərbaycanın Gürcüstandakı səfiri Dursun Həsənov çıxışında görkəmli ədibin əsərinin onun ad günü ərəfəsində gürcü oxucuları üçün tərcümə edilməsini tarixi hadisə adlandırıb. Bildirib ki, bu cür tədbirlər təkcə mədəniyyət sahəsində deyil, bütün istiqamətlərdə əlaqələrin inkişafında mühüm rol oynayır.

Deputat Mahir Dərziyev Mir Cəlal Paşayevlə bağlı xatirələrini bölüşüb. Bakıda ali təhsil aldığı dövrdə M.C.Paşayevdən ustad dərsləri aldığını bildirib.

“Georgian Times Holding”in prezidenti Malxaz Qulaşvili Mir Cəlal Paşayev haqqında məlumatlı olduğunu, onun əsərlərini maraqla oxuduğunu bildirib. Qeyd edib ki, zəngin dünyagörüşünə malik ədibin “Bir gəncin manifesti” povesti dərin məzmunu və oxunaqlığı ilə gürcü oxucuların xoşuna gələcək.

Digər çıxış edənlər “Bir gəncin manifesti” əsərinin gürcü dilinə tərcümə olunmasını yüksək qiymətləndirib, yeni kitabın Azərbaycan və Gürcüstan arasında ədəbi əlaqələrin inkişafına töhfə verəcəyini bildiriblər. Kitabın gürcü oxucularının Mir Cəlal Paşayevin yaradıcılığı ilə yaxından tanış olmasına imkan yaradacağı xüsusi qeyd edilib.

Əsəri gürcü dilinə İmir Məmmədli tərcümə edib. Kitabın redaktoru Mirzə Məmmədoğludur.


*Təkrar*

## Azərbaycan Respublikası Təhsil Nazirliyi Lənkəran Dövlət Universiteti

### *açıq tenderə dəvət edir*

**Tender 1 (bir) LOT üzrə keçirilir:**

LOT 1. LDU-nun Lənkəran şəhəri, H.Z.Tağıyev küçəsi, 118 ünvanında digər tikililərin inşası işlərinin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqavilənin yerinə yetirilməsi üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Lənkəran şəhəri, H.Aslanov xiyabanı, 50 ünvanından ala bilərlər.

**İştirak haqqı:**
**LOT üzrə 350 (üç yüz əlli) manat**
**Əlaqələndirici şəxs: Alxasov Samir Müseyib oğlu**
**Telefon: (025) 255 14 80**

**İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:**
**Lənkəran Dövlət Universiteti**
**Hesab №: AZ97AIIB33080019443870045138**
**VÖEN: 2600135481**
**Kapital Bank ASC Lənkəran filialı**
**Kod: 200383**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T. BIK AIIBAZ2X**

Ünvan: AZ 4200, Lənkəran şəhəri, H.Aslanov xiyabanı, 50, faks: (025) 255-27-86; www.lsu.edu.az:office@lsu.edu.az

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri:*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 14 may 2019-cu il saat 17:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 23 may 2019-cu il saat 17:00-a qədər Lənkəran şəhəri, Həzi Aslanov, 50 ünvanına, Lənkəran Dövlət Universitetinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 24 may 2019-cu il saat 15:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***


# Zaqatala sakinləri tibbi müayinədən razıdırlar

Zaqatala Rayon Mərkəzi Xəstəxanasında qələbəlikdir. Növbəlilik əsasında hər kəs sağlamlığı ilə bağlı onu narahat edən problemini aradan qaldırmaq üçün həkimlərin qəbulundadır.

Rayon Mərkəzi Xəstəxanasının baş həkimi Məcid Əliyev bildirdi ki, fevralın 12-dən Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq respublikamızda əhalinin tibbi müayinələrdən keçirilməsinə başlanılıb. Zaqatala rayonunda da pulsuz tibbi müayinələrin aparılması intensiv şəkildə davam etdirilir.

Ümumilikdə rayonda yaşayan 128 min 720 nəfər əhalinin 17 yaşdan yuxarı 77 min 542 nəfəri müayinədən keçməlidir. Bununla əlaqədar rayon üzrə 1 səyyar briqada, Diaqnostika Mərkəzi, rayon Mərkəzi Xəstəxanasının konsaltativ poliklinika şöbəsində həkim briqadaları tərəfindən proses uğurla aparılır. Briqadaların tərkibində yüksək səviyyəli mütəxəssislər var. Səyyar briqada əsasən ən ucqar kəndlərdə, xüsusən də fiziki imkanları məhdud olan insanlara xidmət göstərmək üçün təşkil edilib.

İndiyədək rayon üzrə ümumilikdə 60 min nəfərdən çox sakin tibbi müayinədən keçirilib. Onlardan 4784 nəfərə ambulator müalicə, 91 nəfərə isə stasionar müalicə təşkil olunub. Müəyyən hallarda müalicəsi yerli şəraitdə mümkün olmayan xəstələr paytaxtın nüfuzlu tibb müəssisələrinə göndərilib. Sakinlər nəzərdə tutulan zaman müddətində tibbi müayinədən keçiriləcək. Müşahidə olunan xəstəliklər arasında ürək-damar və əsəb xəstəlikləri daha çoxdur.

Tibbi müayinələrin keçirilməsi zamanı sakinlərin rahatlığının təmin olunması üçün Suvagil, Əliabad və Danaçı kənd sahə xəstəxanaları da prosesə cəlb olunub.

Müayinə olunan xəstələrə yaxınlaşırıq. Şaban Kastayev Danaçı kəndindəndir. Uzun illərdir ki, şəkərli diabet xəstəsidir. Dediyinə görə, daimi həkim nəzarətində olması öz təsirini göstərir. Qoyulan düzgün diaqnoz, aparılan profilaktik tədbirlər uzun müddət xəstəliyin sabit qalmasına və daha da yaxşılaşmasına müsbət təsir göstərir.

RMX-nin endokrinoloq həkimi Ülkər Qazıyeva da söhbətə qoşulur. Deyir ki, ümumilikdə rayonda qeydiyyatda 750 nəfər şəkərli diabet xəstəsi var. Onların da hamısı vaxtında müayinə olunur, zəruri aparat və dərmanlarla təmin edilir.

Abdüləziz Nusəlov isə Yuxarı Tala kəndindəndir. O, ürək-damar problemi olduğu üçün müayinəyə gəlib. Abdüləziz kişi onlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərinə minnətdarlığını bildirdi.

***Əli SƏLİMOV,***
***“Azərbaycan”***

# *Müdafiə Nazirliyi:* Düşmən sutka ərzində atəşkəs rejimini 25 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 25 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Acarlı, Yusifcanlı, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən ordumuzun mövqeləri atəşə tutulub.

***AZƏRTAC***

# Fasiləsiz elektrik enerjisi təchizatı tam təmin olunacaqdır

26-28 aprel 2019-cu il tarixlərində növbəti “Formula-1” yarışlarının keçiriləcəyi yerlərin fasiləsiz elektrik enerjisi ilə təchiz olunması məqsədilə təşkilati və texniki tədbirlər görülərək “Azərenerji” ASC və “Azərişıq” ASC-nin Mərkəzi Aparatı və RETSİ-lər üzrə məsul vəzifəli şəxslərdən ibarət növbətçilik təşkil edilib. Qəza hallarının operativ aradan qaldırılması məqsədilə xüsusi briqadalar yaradılıb.

Yarışların keçiriləcəyi yerlərin fasiləsiz elektrik enerjisi ilə təchiz olunmasını, habelə baş verə biləcək hər hansı qəza hadisəsinin qarşısının alınması üçün zəruri tədbirlər görülüb.

Texniki direktorluqlara tabe olan xidmət sahələrində və avtonəqliyyat idarələrində növbətçilik təşkil edilib, zəruri olan mal-materialların ehtiyatı yaradılıb. Baş vermiş qəzaların nəticələrinin aradan qaldırılması halları istisna olmaqla, yarışların keçirildiyi yerlərdə aparılması planlaşdırılan yenidənqurma və əsaslı təmir-tikinti işləri müvəqqəti dayandırılıb, elektrik şəbəkələrinin normal rejiminin təmin olunması məqsədilə RETSİ-lər üzrə təşkil edilmiş növbətçilik üzərində nəzarət gücləndirilib.

***“Azərbaycan”***

# Beynəlxalq aləm

## Şri-Lankada partlayışlarda ölənlərin sayı 310 nəfərə çatıb



Şri-Lankanın paytaxtı Kolomboda və Neqombo şəhərində 3 kilsə və 3 hoteldə, ardınca isə digər iki yerdə törədilmiş partlayışlar nəticəsində ölənlərin sayı 310 nəfərə çatıb. Təxminən 500 yaralı var. Bu barədə yerli KİV xəbər verir. Bu gündən etibarən ölkədə fövqəladə vəziyyət rejimi tətbiq olunmuşdur. Aprelin 21-dən isə komendant saatı qüvvədədir. Hadisə ilə bağlı 40 nəfərin saxlanıldığı bildirilir.

## Londonda 1000 nəfərdən çox fəal tutulub



Londonda aprelin 15-dən bəri 1000-dən çox ekoloji fəal tutulmuşdur. Onlar etiraz aksiyaları zamanı asayişi pozmaqda ittiham olunurlar. Saxlanılanlardan 53-nə qarşı ittiham irəli sürülmüşdür. Bu barədə Skotland-Yard özünün Twitterdəki səhifəsində məlumat vermişdir.

Artıq ikinci həftədir ətraf mühit müdafiəçiləri Britaniya paytaxtının müxtəlif rayonlarında mitinq keçirirlər. Onlar havanı çirkləndirməyə etiraz əlaməti olaraq nəqliyyatın hərəkətini dayandırırlar. Polis asayiş keşikçilərinin tələbi ilə yoldan çıxmayanları saxlayır, lakin fəallar buraxıldıqdan sonra geri qayıdıb etirazlarına davam edirlər.

Mitinqlərin təşkilinə cavabdeh olan “Extinction Rebellion” ekoloji təşkilatı xəbərdarlıq etmişdir ki, hakimiyyət orqanları danışıqlara getməsə, şəhərdə iğtişaşlar genişlənəcək.



## Texasda təyyarə qəzası

ABŞ-ın Texas ştatında baş vermiş təyyarə qəzası nəticəsində 6 nəfər, o cümlədən pilot həlak olmuşdur. Bu barədə “Rosbalt” agentliyi xəbər verir.

Məlumata görə, ikimühərrikli “Beechcraft” təyyarəsi Kervill şəhərinin yaxınlığında qəzaya uğramışdır. Ölənlərin şəxsiyyəti barədə məlumat verilmir.

Özəl təyyarə enmə zamanı yerə çırpılmışdır. Qəzanın səbəbi araşdırılır.

## İndoneziyada seçkilərdə 54 nəfər öldü

İndoneziyada keçirilmiş ümumxalq seçkilərindən sonra səslərin sayılması prosesində azı 54 nəfər güclü yorğunluqdan dünyasını dəyişmiş, 32 nəfər xəstəxanalara yerləşdirilmişdir. Bu barədə Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Arif Budiman məlumat vermişdir.

Budiman bildirmişdir ki, yorğunluğa səbəb bir çox yerlərdə iş vaxtının səhər 5:00-da başlaması və təxminən bir sutka davam etməsi olmuşdur.

MSK-nın məlumatına görə, aprelin 17-də keçirilmiş seçki dünyada ən irimiqyaslı seçki olmuşdur. Ölkə vətəndaşları Prezidenti, parlamentin iki palatasının deputatlarını və yerli qanunvericiləri seçmişlər. Seçkilərdə 20 min yerə namizədliyini irəli sürmüş 240 min nəfər iştirak etmişdir. Səsvermə hüququ olan 193 milyon nəfərin təxminən 80 faizi səs vermişdir.

## Lüksemburq hersoqu 98 yaşında vəfat etdi



2000-ci ildə vəzifəsini tərk etmiş Lüksemburq hersoqu Jan 98 yaşında vəfat etmişdir. Bu barədə onun oğlu, böyük hersoq Anri məlumat vermişdir. Onun dediyinə görə, atası qohum-əqrəbanın yanında dünyasını dəyişmişdir. Bu barədə TASS agentliyi xəbər verir.

1964-cü ildən bəri dövlətə rəhbərlik edən böyük hersoq Jan 2000-ci ildə taxt-tacdan imtina edib idarəetməni oğluna vermişdi. Bununla belə, o, bütün titullarını qoruyub saxlamışdı.


## BİLDİRİŞ

Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən təsərrüfat və azqiymətli malların satın alınması ilə əlaqədar elan edilmiş açıq tender üzrə Tender komissiyasının 12 aprel 2019-cu il tarixli qərarına əsasən fərdi sahibkar İmran Əsəd oğlu Nəsibov qalib seçilmişdir.

Qalib şəxslə satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## “Bakı Metropoliteni” QSC müxtəlif işlərin satın alınması üzrə

### *açıq tender elan edir*

Tender 4 (dörd) LOT üzrə keçirilir:

**LOT-1.** “Bakı metropoliteni” QSC-nin Struktur bölmələrində havalandırma, santexnika, istilik sistemi, işıqlandırma və s. işlərin satın alınması.

**LOT-2.** “Bakı Metropoliteni” QSC-nin “N.Nərimanov” elektrik deposu ərazisində tikanlı məftildən, metal profildən xüsusi tipli mühafizə hasarının və 17, 24, 40 saylı şaxtaların üzərində metal konstruksiyadan ventilyasiya köşklərinin hazırlanıb quraşdırılması işlərinin satın alınması.

**LOT-3.** “Bakı Metropoliteni” QSC-nin “B03” stansiyasında 35 kv-luq Paylayıcı qurğu binasında fasadın şüşə və kompozit material ilə üzlənməsi işlərinin satın alınması.

**LOT-4.** “Bakı Metropoliteni” QSC-nin müxtəlif obyektlərində asfalt beton təmir işlərinin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Rəfili küçəsi, 16-dan (əlaqələndirici şəxs: Rauf Yusifov; telefon: 490-00-91) ala bilərlər.

**İştirak haqqı** 1 LOT üzrə - 200 manat
2 LOT üzrə - 250 manat
3 LOT üzrə - 250 manat
4 LOT üzrə - 200 manat

**Hesabın adı: BAKI METROPOLITENI QSC**
**Hesab nömrəsi (IBAN): AZ98AZRT38050019440010268002 AZN**
**VÖEN: 1402871431**
**Bankın adı : AZƏR TÜRK BANK ASC (Mərkəz Filialı)**
**Kod: 501361**
**VÖEN: 9900006111**
**Müxbir hesabı: AZ02NABZ01350100000000022944**
**SWIFT BIK: AZRTAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 40 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 70 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *metropolitendə iş təcrübəsi.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **29 may 2019-cu il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **10 iyun 2019-cu il saat 17:00-a** qədər Bakı şəhəri, M.Rəfili küçəsi, 16 ünvanına “İcraya Nəzarət, Kargüzarlıq və Təsərrüfat İşləri” şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **11 iyun 2019-cu il saat 15:00-da** yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilər.

***Tender komissiyası***


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Prokurorluğunun kollektivi prokurorluğun veteranı

**EYYUB MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Ombudsman Elmira Süleymanova Respublika Şəhid Anaları Xeyriyyə Mərkəzinin sədri, pedaqogika üzrə fəlsəfə doktoru, Azərbaycanın Milli Qəhrəmanı Gültəkin Əsgərovanın anası

**RƏFİQƏ XANIM ƏSGƏROVANIN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan Texniki Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi universitetin inzibati-təsərrüfat işləri üzrə prorektoru Abuzər Mirzəliyevə əzizi

**ZAHİD ƏSƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 9098
Sifariş 1362
Qiyməti 40 qəpik